## ♦ 2022 – Şuşa İli

*Vaqif BƏHMƏNLİ*



# BU QALA BİZİM QALA...

♦ *Şuşa naxışları*

*Bu qala bizim qala,*
*Həmişə bizim qala.*
*Tikmədim özüm qalam,*
*Tikdim ki, izim qala.*

***Xudu Məmmədov***

*Külli-Qarabağın abi-həyatı*
*Nərmənazik bayatıdır, bayatı.*

***Səməd Vurğun***

*Dağı dağ üstdə duran dağlı səməndərdi Şuşa;*
*Necə bəs dil-dil ötür gül-gül açan dərdi Şuşa?!*

***Vaqif Bəhmənli***

**Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Ali Baş Komandan**

### – 1. –

Otuz illik ayrılıqdan sonra dədə-baba yurduna, Şuşaya yetişib Cıdır düzünü ziyarətə çıxan orta yaşlı kişi orada təsadüfən BBC müxbiri ilə rastlaşır. Müxbir kişini sorğu-suala çəkir:

– Şuşada olmaq, Cıdır düzündə gəzmək necə bir hissdir?

Kişi həyəcanlanır, yüngülcə qəhərlənib qısaqol köynəkdən qolunu irəli uzadıb, jurnalistin gözü önünə tutur... Onun qolunun tükləri biz-bizdir:

– Şuşada olmaq, Cıdır düzündə gəzmək bax belə bir hissdir, – deyir...

Bizim Qarabağ, Şuşa sevgimizin şiddətini bu epizoddakı qədər lakonik və dəqiqliklə ifadə eləmək heç də həmişə mümkün olmur. Yəni bu, hadisədir, gərək baş verə!

Tarixi hadisə isə... baş verib; 2020-ci il sentyabr ayının 27-dən başlayaraq 2021-ci il noyabr ayının 10-una kimi olan müddətdə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanın zəkalı rəhbərliyi, Azərbaycan ordusunun rəşadəti və əlbəttə, Azərbaycan xalqının sarsılmaz birliyi sayəsində külli-Qarabağ, o cümlədən, əziz Şuşa şəhəri 44 günlük əks-hücumla, dəqiq deyilsə, 8 noyabr 2021-ci ildə mənfur düşməndən təmizlənərək özünün qədim, tarixi azadlığına qovuşub!

### – 2. –

Türk dünyasının bir parçası olaraq milli və müstəqil Azərbaycan dövlətinin uzaq-yaxın hərb tarixində İkinci Qarabağ savaşına və zəfərinə bənzər sürətli, qətiyyətli, diplomatik, modern və hardasa ecazkar, hətta, səmavi müjdə dəyərində olan ayrı bir qələbə xatırlanmır. Qarabağ uğrunda tarixi savaş ölkələrarası münasibətlər müstəvisində, bir sıra hallarda belə də olur, gözlənilmədən üzə çıxan, təsadüf və qəfil dirənişdən yaranan savaş deyildi, bu, 30 ildən bəri ədalət barədə düşüncəsi, halal haqqı təhdid və təəssüf ki, təhqir olunan bir dövlətin, xalqın nəhayətdə kükrəyişi, əks-hücum zərurətini təsdiqləməsi, zamanı yetişən qətiyyəti idi; yəni, iş o yerə gəlib çıxmışdı ki, işğalçını yerində oturtmaq üçün silahdan başqa vasitə qalmamışdı. Bu zəfər savaşı idi – acı bağırsağa dönüb onilliklər boyunca uzanan münaqişənin bitməsi, ədalətin öz yerini tutması, yəni düşmənin yastı başının və donqar burnunun əzilməsi üçün yeganə alətin dəmir yumruq olmasına əminlikdən vəcd alan bir savaş idi. Bu, vaxtı, hədəfi, hərəkət trayektoriyaları zərgər dəqiqliyi ilə hesablanmış bir savaş idi.

Sizin bir çoxlarınız kimi politoloq və ya hərbi ekspert olmasam da, Qarabağ münaqişəsinin lap başlanğıcından dədə-baba yurdumun taleyi, onun azadlığına aparan yol, bu yolun dünya gücləri tərəfindən ifrat dərəcədə çətinləşdirildiyi, əslində, ələş-küləş edilib dolaşığa salındığı barədə aramsız düşünmüşəm.

Aktiv jurnalistikada çalışdığım, başqa sözlə, redaksiya əməkdaşı olduğum ötən əsr – 80-ci illər, 90-cı illərin birinci yarısı bir qığılcım işartısıyla gö-

zümün önündə yeni başdan közərir: yəni o illərdə indiki Xocavənd, Ağdərə, Xankəndi ərazilərini, Ağdamı, Füzulini, Xocalını, Şuşanı, Laçını, Qubadlını, Kəlbəcəri... dolaşaraq (1992-ci ilə kimi) müxtəlif vaxtlarda təmsilçisi olduğum "Sovet kəndi", "Kommunist", "Odlar yurdu" qəzetləri üçün qələmə alınan qaynar reportaj və araşdırma yazılarında gerçək durumu imkan daxilində əhaliyə çatdırmaqla yanaşı, ən müxtəlif səbəblərdən körüklənən münaqişə ocağının "söndürülməsinə" müəyyən dərəcədə, xırda da olsa güman yerinin qaldığını da düşünürdüm. O zamanlar hələ də elə bilirdik ki, məsələn, Cəfər Cabbarlının "1905-ci ildə" pyesinin qəhrəmanları olan Allahverdi ilə İmamverdinin, Tuğ kəndinin digər sakinlərinin birgə yaşayış, dostluq, doğmalıq epizodlarını əhaliyə, hər iki millətə mənsub icmalara xatırlatsaq, qəfilcən püskürüb 30 il ərzində nəinki Azərbaycan xalqını, bütün regionu humanitar, siyasi, iqtisadi, mənəvi fəlakətə düçar edən seperatizmi səngidə bilərik...

...1988-ci ildə Xankəndidə (Stepanakert) bölücü qüvvələrin Dağlıq Qarabağ Vilayətinin Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi tələbinə etiraz olaraq Ağdam əhalisinin o qan çanağına dinc yürüş etməyi, onların qarşısının kəsilməyi və iki gəncin (Əli Hacıyev, Bəxtiyar Quliyev) qətlə yetirilməsi tarixini də nəzərə alsaq, Qarabağ müharibəsinin davamiyyət müddəti 33 ili üstələyir.

Birinci Qarabağ savaşının kədərli statistikasını əksər əhalimiz, demək olar ki, əzbərdən bilir; Dağlıq Qarabağın rayonları, üstəgəl Vilayətə aidliyi olmayan 7 rayonun işğalı nəticəsində itirilən ərazilər, həyati obyektlər bir yana, bu uduzmağın qabağında 20 min şəhid, 50 min əlil, 446 itkin "qazanmışdıq". 1995-ci ildən – atəşkəs elan olunandan sonra ordumuzun itirdiyi hərbçi şəhidlərin sayı 5 mini ötmüşdü.

...və bu 33 il ərzində, bir il bundan öncəyə qədər çarəsizliyin pik həddini xatırlayaraq təlaş keçirən, çarəsizliyin əmələ gətirdiyi hirs içində boğulan da yəqin ki, təkcə mən deyildim.

Bu gün isə hər bir azərbaycanlı eyni hissin (rahatlıq, nəfəs genişliyi, qürur) təsiri altındadır, bir az diqqətlə baxsalar, bəlkə bizim simalarımızın, üzümüzü bürüyən cizgilərin hər zamankından daha çox biri-birinə bənzədiyini görmək də təəccüb doğurmaz. Fərqinə varsaq ki, son bir il ərzində baş verən tarixi hadisə, İkinci Qarabağ savaşı, "Dəmir yumruq" əməliyyatı haqqında, qələbənin səbəbləri, erməni faşizminin nəhayət ki, şərəfsiz, biabırçı və mütrüb sonu barədə, Qarabağ mövzusunda otuz il ərzində yazılıb-deyildiyindən daha çox bəhs edilib, xalqımız, soydaşlarımız, dünya ictimaiyyəti məsələdən mükəmməl halidir və bu yöndə zamanla daha yaxşı aşkarlanan mənbələr, mülahizələr, təhlillər ortaya çıxacaq, məhz bu səbəbdən politoloji xatırlamaları arxa plana çəkib bir daha oxuduğunuz bu yazının başlığına (sərlövhəsinə) üz tuturam.

### *– 3. –*

Bu qala bizim qala... Bəlkə də 50-60 il ərzində misraları minlərlə məqaləyə ad seçilən bu bayatı sətrinin müəllifinin Azərbaycanda düzlük, təvazö-

karlıq nişanlarından biri kimi tanınan alim, ziyalı Xudu Məmmədov olduğunu gərək ki, eşitmişdim, amma nədənsə unutmuşdum. İnternetdən dəqiqləşdirmək istədim. Məlum oldu ki, alimin iki digər bayatısı da sosial şəbəkədə yer alıb.

***Çiy yumurta soyulmaz,***
***Göydə ulduz sayılmaz.***
***Bütün xalqlar ayıldı,***
***Mənim xalqım ayılmaz!***

***Elim köməyim olsun,***
***Əlim köməyim olsun.***
***Kimsəyə yük olarsam,***
***Ölüm köməyim olsun!***

Məğzində ötüb-keçmiş bütöv bir epoxanın möhürü olan bayatıları ilk dinlədiyimdə də bəyənmişdim, indi də oxudum, yenə bəyəndim. Bayatı bayatını çəkib gətirər. El-obanın düzüb-qoşduğu bir dördlük də mənim yaddaşımdan boylandı:



***Bu qala daşlı qala,***
***Çınqıllı-daşlı qala.***
***Qorxuram gəlməyəsiz,***
***Gözlərim yaşlı qala...***

Bircə an içində qəhərə boğulmağım özümdən asılı olmadı. Mənə elə gəldi ki, bu bayatını Azərbaycanın, Qarabağın tuti dili, nəğməli dodağı sayılan Şuşanın özü oxuyub və 30 il ara vermədən, əl-ətəyində qıvrılan yollara baxaraq oxuyub!

## – 4. –

2021-ci il avqust ayının 28-31-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığı və iştirakı, Azərbaycan

Respublikasının birinci vitse-prezidenti Mehriban Əliyevanın, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ən yüksək səviyyədə hazırlanan Vaqif Poeziya Günlərinə yollanmaq üçün Filarmoniyanın yaraşıqlı həyətində sıralanan mikroavtobuslara (türk qardaşlarımız bu həcm, bu quruluşlu arabalara “dolmuş” deyirlər) qalxdığımız anlarda heyətə daxil olan hər kəs kimi mən də hansı hissləri keçirdiyimi söyləməkdə çətinlik çəkirəm. Amma dəqiq bilirəm ki, o gün 30 ildən sonra Şuşanı yenidən görmək şansı qazanan bu yaradıcı insanların qəlbində qaynayan duyğuların yalnız bir adı ola bilər: ayrılığın, firqətin sonu – biz sənə gəlirik, əziz Şuşa, səni bağrımıza basmağa, yaralarından öpməyə, susan dilini açmağa, nəğmələrini, sözlərini qanadlandırmağa, Qarabağ uğrunda canından keçən igid oğulların ruhu qarşısında, bax o yenilməz ucalıqda baş endirib, susmağa və həm də bu ulu qələbə şəninə şeir söyləyib, nəğmələr oxumağa...

İlahi, seçilmiş xoşbəxtlərin sayına, sanbalına bax! Maşallah, bir ordu kimiyik – söz, sənət, mədəniyyət, mənəviyyat ordusu!

Özümdən böyüklərə yaxınlaşmaq məcazım olmadığından, səfər yoldaşlarımla sanki gözümlə, ürəyimin yüngül döyüntüləri ilə salamlaşıram.

Onlar – bəziləri 1982-ci ilin qışında şair, dövlət xadimi qismində Molla Pənah Vaqifin məqbərəsinin açılışından bəhs edən kadrlarda Ulu Öndər Heydər Əliyevlə yanaşı dayanan, çıxış edən, şeir söyləyən insanlardır. İndi yaşı 90-ı ötən, bənzərsiz poetik, dramatik əsərlərə imza atan Nəriman Həsənzadə, digər ədəbi kəşflərlə yanaşı Qarabağ mövzusunda da həyati, bədii-publisistik lövhələrin yaradıcısı Elçin Əfəndiyev, çağdaş ədəbiyyatımızın Dədə Qorqudu Anar, qurucu dövlət xadimi, tarixçi-ədib Həsən Həsənov, xalq yazıçısı və şairləri Sabir Rüstəmxanlı, Vahid Əziz, Mövlud Süleymanlı, xalq artistləri Fərhad Bədəlbəyli, Polad Bülbüloğlu, Mərahim Fərzəlibəyov, xalq rəssamı Fərhad Xəlilov, akademiklər -- İsa Həbibbəyli, Nizami Cəfərov, Teymur Kərimli, Tehran Əlişanoğlu, Məhərrəm Qasımlı, millət vəkili Jalə Əliyeva, istəkli qələm dostlarım İntiqam Qasımzadə, Vaqif Aslan, Zakir Fəxri, Aqil Abbas, Adil Cəmil, Azər Turan, Əbülfət Mədətoğlu, Mustafa Çəmənli, Əli Əmirli, Vaqif Əlixanlı, Əli Mahmud, Ələmdar Quluzadə, Vilayət Quliyev, Baba Vəziroğlu, Barat Vüsal, Nəriman Qasımoğlu, İbrahim İlyaslı, Təranə Vahid, Günel Anarqızı, Arif Buzovnalı, Şəhriyar del Gerani, Fərid Hüseyn, Ramil Əhməd...

İşğaldan 29 il keçəndən sonra indicə adlarını çəkdiyim və çəkmədiyim insanlar, yəni biz Şuşaya, minilik şahanə dağların baş tacı sayılan 280 sənəlik Qalaya qovuşan ilkinlərdən olacaqdıq. Və yəqin ki, mübarək ziyarətçilik ərzində zamanın məhz bizim heyətə aid xronikası bir an belə işığını yummayan telefon, smartfon, foto və telekameralarin foks yaddaşına hopacaq, yaranan vizual sərvət bütün ölkə boyunca ən dəyərli sovqat kimi, anında paylaşılacaq, tarixi günlərin dəlil-subutu qismində gələcək nəsillərə yadigar qalacaq! Deyildiyi kimi də oldu...

Təbii, Azad Şuşaya səfər başlayan bu şəxsiyyətlərin eləcə adlarının çəkilməyi Vaqif Poeziya Günlərinə yollanan heyətin ictimai-ədəbi siqləti barədə az söz söyləmir.

Amma yenə də gözüm yaxında-uzaqda dayanan, bir-biri ilə söhbətləşən, avtobuslara qalxmaq üçün dəvət gözləyən insanlar arasında görmək istədiyim doğmaları axtarır: Vaqif Nəsib, Ənvər Əhməd, Çingiz Əlioğlu, Seyran Səxavət, Ramiz Rövşən, Vaqif Bayatlı, Rəşad Məcid, Ağacəfər Həsənli, Qulu Ağsəs, Əjdər Ol, Tofiq Nurəli, Maarif Soltan, Paşa Qəlbinur, Ramiz Qusarçaylı... Kaş bu sıradan digər qələm yoldaşlarım da elə indi burda olaydılar, bizim hər birimiz kimi bir azdan Bakı-Şuşa marşrutuyla hərəkətə başlayan avtobuslara qalxmağa dəvət gözləyəydilər...

Mənə qalsa, əlbəttə, bu metafora, bir şair mübaliğəsidir, o gün bütün Bakı əhlinin bizimlə bahəm Şuşaya yola düşməsini istərdim. Amma hər bir tədbirin formatı, say kvotası olur. Digər tərəfdən, bizim əcdadlarımız insan qəlbindəki arzunun çin olub-olmamasının mümkün yekununu bircə kəlmə sözlə mükəmməl ifadə edib: Qismət!

Hər kəsin heç bir məxsusi hazırlıq görülmədən Qarabağın istənilən guşəsinə, o sıradan Şuşaya sərbəstcə yollanmasına, el dilincə desək, sanalı günlər qalıb.

## *– 5. –*

Yola düşməyə dəvət edilirik... Hələ də çevrəni müşayiətdən, içimdəki söyləyişlərdən qopa bilmirəm; İlahi, deyirəm biz nə qədər xoşbəxt müasirlərik, ölmədik, Qarabağın, vətənimizin şərəf zirvəsi Şuşa şəhərinin azad olan gününü gördük... Amma baxın, bu otuz il ərzində nə qədər itkilərimiz oldu?! Şəhid ruhların əbədiyyətinə şəksiz-şübhəsiz inamım var. Bununla belə, səngərdə, tarlada öz evinin içində, lap elə öz əcəliylə dünyasını dəyişən, arzu-kamı gözündə sönən nə qədər insan bir daha Qarabağa ayaq basa bilməyəcək?! 20 yanvar şəhidləri, Xocalı şəhidləri, Birinci Qarabağ savaşında itirdiyimiz 20 min insan, İkinci Qarabağ savaşının 3000 müzəffər şəhidi, 30 il ərzində vətən həsrəti ilə qovrulan, öz tarixi mühitindən ayrılıb Azərbaycanın neçə-neçə bölgələrinə səpələnən və məhz vətən niskilinə görə qəhr olan insanlar, yurddaşlar, soydaşlar... bir daha Qarabağa ayaq basmayacaqlar, Şuşanı görməyəcəklər, o müqəddəs ucalıqdan boylanıb Azərbaycan xalqının bütün ölkə içrə necə xaruqələr yaratdıqlarını seyr edə bilməyəcəklər! Heyhat, onların bu qədim-qayım torpaqların qalalarına, daşlarına üz sürtmələri heç zaman mümkün olmayacaq. Yenə də təsəlli budur ki, ruhlar həqiqətən də ölmürlər. Biz indi yaraşıqlı, müasir biçimli, təptəzə avtobuslara doluşduğumuz anda, onlar çoxdan ordadılar və dirilərin yolunu gözləyirlər. Və buna nöqtə boyda şəkk-şübhə ola bilməz!

Nəhayət ki, bizi Şuşaya, bir qarlı qış günü, 1982-ci il fevralın 14-də açılışı olan, 49 il sonra bərpası başa çatdırılan M.P.Vaqif Məqbərəsinin ikinci açılış ziyarətinə, bunun ardınca Vaqif Poeziya Günlərinin təntənəsinə qovuşdurmaq üçün Dövlət Filarmoniyasının həyətində qatarlanan maşın karvanı Qafqazın Konservatoriyasına səmt götürdü. (Səhv etmirəmsə, hər biri 12 yerlik olan 15 komfortlu mikroavtobus).

Burada elə dostlar var ki, 30 illik həsrətdən əvvəl də Şuşada olmayıb. Amma mən... mən isə ilk dəfə Bakı və Şuşa şəhərini eyni ildə görmüşəm; 50 il öncə... Budur neçə onilliklərdir ki, Bakıdan Əhmədbəyliyə – Zəfər yoluna ayrılan nöqtəyə qədərki məsafəni, demək olar, hər il, bəzən hər ay qət etmişəm.

Zəfər yolu – Bakı səmtdən gələndə Əhmədbəyli dördyolundan sağa burulan yol yönündə salınıb. “Yol yönündə” sözü bəlkə də yerinə düşmür. Əslində, Zəfər yolu 30 il ərzində yolsuz ermənının kor qoyduğu, az qala cığırı, izi belə qalmayan yolsuzluğu aradan qaldıraraq 9 ay ərzində doğulub. Mənə bu sətirləri bir neçə ay öncə Böyük Bəhmənliyə səfərim sayəsində təzələnən yaddaşım, orda, dördyol deyilən yerdə maşını əylənərək arı kimi qaynaşan maşın-texnikanı, sayı-hesabı bilinməyən yolçəkənlərin hay-küylü iş prosesini izləməyimin təəssüratı yazdırır.

Avtobusun içi... Səfər yoldaşlarım sanki yavaş-yavaş “yoxa çıxır”. Gözüm önündə əlli il öncənin xəyalı... On beş-on altı yaşım... Bizim kənd camaatının gediş-gəlişi adətən Bəhmənli-Horadiz-Füzuli marşrutuyla olsa da, mən bu yolu da sevirdim – Əhmədbəyli, Mahmudlu, Kürdmahmudlu, Aşağı və Yuxarı Alxanlı, Qaraxanbəyli, Mirzəcamallı, Şəkərcik, Füzuli... Bəli, doğma kəndimə, Bəhmənliyə 5-6 kilometr qalmış sağa burulacağıq və Zəfər yolu bizi Şuşaya çatdıracaq... Halbuki, 2020-ci ilin avqust ayında, yatsaq yuxumuza da girməzdi ki, Azərbaycanın yüz əllidən bir qədər az, yaxud bir qədər çox yazıçısı, şairi, ədəbiyyatşünası, dövlət və ictimaiyyət xadimi uğurlu bir karvanın tərkində “Xarı bülbül” Beynəlxalq Musiqi Festifalının ardınca başqa bir tarixi tədbirə – Vaqif Poeziya Günlərinə qovuşmaq üçün Şuşaya yollanacaq! Bu, qismət idi, bu, alın yazısı idi...

Öncə özümə, eyni zamanda, diqqətli oxuculara məlum olan bir fakt səbəbindən, sözün düzü, daxili rahatlıqla yanaşı utanc hissi də keçirirdim. Səbəb isə bu idi ki, ilyarım öncə özümlə münasibətdə Şuşanı “nazlı bir mələyə” bənzədib “qoynunda əğyarlara yer verdiyinə görə” onu “vəfasızlıqda” qınamışdım. Yaddaşım bəlkə də heç zaman olmadığı dərəcədə oyaqdı; o sətirləri yerli-yerində xatırlayıram:

***Dağı dağ üstdə duran dağlı səməndərdi Şuşa,***
***Necə bəs dil-dil ötür gül-gül açan dərdi Şuşa?***

***Qol açıb hər yetənə; pis nəzərə gəldi yəqin –***
***Partlamışlar uladı: gör nə qəşəng yerdi Şuşa!..***

***Qaldırıb dik başına zatıqırıq qor-qoduğu,***
***Tullayıb dar dərəyə dərdləri min mərdi Şuşa!***

***O xəcil, axdı təri, qanbulaşıq köynəyini***
***Xarıbülbül gülünün yarpağına sərdi Şuşa?***

***Bəlkə nərd taxtasıdı yek Cıdırın tas sinəsi –***
***Fəndgir əllərdə gəzən şeşli-beşli zərdi Şuşa?***

***Tanrıya asi olub qövr eləsəm hiddətdən,***
***Deyərəm, dərd yuvası, otlu-sulu şərdi Şuşa!***

***Əhdi Vaqiflə idi, peymanımız qəbrə qədər...***
***Bəs hanı? Gərdəyini düşmənəmi verdi Şuşa?***

Zəfər yoluna dönməyib Araz boyunca, uca boylu, cərgəli ağacların arasıyla uzanan Arazboyu yolun müasir tariximiz üçün əlahiddə əhəmiyyət daşıdığının mesajı da Ali Baş Komandan tərəfindən səsləndirilib. Bu düzəngah yolu Azərbaycan dövlətinin qüdrətini daha bir qat artırmaq üçün uzanıb gedir. Böyük və tam qayıdışın ilk nəhəng daşları – Arazboyu obalar, Cocuq Mərcanlı və Lələtəpə yüksəkliyi bu yolun üstündədir. Bu yol Zəngəzur dəhlizindən ötüb Naxçıvana, Sədərək qapısına, Türkiyəyə və dünyaya daxil olacaq!

***– 6. –***

Bildiyimə görə, Bakıdan Şuşaya Zəfər yolu da daxil, 5-6 saatlıq yoldur. Yəni düşünmək, Qarabağın, Şuşanın möhtəşəm tarixinə dalmaq, yol uzunu doğma torpaqları, hər qarışına bələd olduğum elləri-elatları xoş məramlı bu səfər müddətində seyr etmək üçün əla bir fürsətdir. Avtobus Azneft dairəsindən qopub üzü Şıx keçidinə yön alır. Aşağı-yuxarı, cəmi 20 il ərzində dünyanın ən yaraşıqlı, işıqlı, təmiz, memarlıq və həyat tərzi baxımından zəngin şəhərinə çevrilən Bakı sanki öz hüsnü ilə yolçuları özünə bənd eləyib heç hara buraxmaq istəmir. Heç yolçu da ayrılmaq istəməzdi... Amma, axı o, bu karvana qoşulub Şuşaya gedir.

...Bir zamanlar bütün ölkədə dəb idi; elə ki, müxtəlif markalı, köhnəli-təzəli mikroavtobuslar sərnişin yükünü tutdu, sürücünün mühərriki işə salmaq üçün açarı burmağı ilə maşının maqnitofonunun düyməsini basmağı bir olurdu. Dərhal salona ya muğam, ya el havası, ya da meyxana ritmi yayılırdı. Musiqinin təsirindən xoşhal olanların çoxluğu ilə bahəm, başını bulayan, ən azı, dilinin dibində gileylənənlər də istisna deyildi; yəni, əcəb işə düşdük, mənzil başına çatanacan baş-beynimizi səs aparar... Guman ki, belə şərnişin xidməti əyalətlərdə, şəhərlərarası miniklərdə, ağır tonajlı yükdaşıma vasitələrinin sürücü kabinələrində hələ də qalır. Bakı nəqliyyatında isə şən, şaqraq, adətən şit musiqilərin “translyasiyası” xatirəyə çevrilməkdədir. Bakı çoxdan ultramüasir şəhərdir, o, nəinki dünyanın meqapolis qaydaları ilə yaşayır, bir sıra hallarda həmin qaydalara əlavələr edir, yəni sərnişin daşıyan sürücünün başlıca vəzifəsi DC-lik deyil, insanları dambadurumsuz, rahat və təhlükəsiz şəkildə mənzil başına çatdırmaqdı. Amma bununla belə, indi bizi Şuşaya aparan bu mikroavtobusun içində, yan-yörəmdəki insanları unudub xəyallar aləmində itib-batarkən ürəyim şair qəlbli bəstəkar, ifaçı, eloğlum Bəhram Nəsibovu arzuladı, lap düzü, onun Qarabağdan danışan bir bəstəsi qımıldandı uçimdə. O mahnını mən, bizim bu qızıl insan yüklü Bakı – Şuşa marşrutuyla

hərəkət edən karvanın hər hansı bir üzvü, bir ömür boyunca neçə dəfə dinləyib, innən sonra neçə dəfə dinləyəcək, onu Allah bilir. Mahnının sadə, iddiasız sözlərini də Bəhram bəy özü yazıb. Kaş bu avtobusun içində düyməsi basılan bir maqnitofon işə düşəydi, oradan Dədə Süleymanın gənclik səsi gələydi:

***Sevgilim, seyrə çıxaq burda gəl ilk baharı,***
***Dil açır qəlbimizin ən şirin arzuları.***
***Anadır arzulara hər zaman Qarabağ,***
***Danışan dil-dodağım, tar-kaman Qarabağ,***
***Qarabağ, can Qarabağ, ana yurdum!***
***...Bu çəmənlərdə gəzib Vaqifin şux gözəli,***
***Ruhunu burdan alıb Hatəvanın qəzəli...***

Get-gedə sadə və qədimi təfərrüatlar içimi daha çox uçundurur. Görünür, ahıllıqdandı...

Düşüncələr öz yerində, Bakıdan Kürdəmir yolu ilə Kür körpüsünü adlayıb İmişliyə, oradan Zəfər yolunun başlanğıc nöqtəsinə çatanacan yol heyrətindən xilas ola bilmirəm.

Yol həqiqətən də ölkənin qüdrətini göstərən, nəinki göstərən, ona qüdrət verən meyar və şərtlərdən biridir; Azərbaycan dəyişib, Azərbaycanın getdiyi yol çox yenilənib, genəlib, rahat olub. Bu yollardan ötüb keçmək, yollar boyu sıralanan abad kənd, qəsəbə, şəhərləri görmək nə qədər qürurludur. Keçmiş günləri xatırlayan mənim yaşda birisinə elə gəlir ki, çırağının piltəsi nə vaxtdan bəri çəkilmiş bir otaqda qəflətən gur işıq yandırıblar, tutqun göy üzü boz bir tavanmış sanki; oradan çılçıraq asıblar... Bu nuru korlar belə görməyə, düşmən belə etiraf etməyə məcburdur. Həm də bu yollar ekvator xətti uzunluğunda olmasa da, ekvator xətti kimi bitib tükənmir, elə hey gedir, gedir... İnsanlar daha Horadizə, Alxanlıya, Quzanlıya, Tapqaraqoyunluya... qədər gedib son ucda mənfur təmas xəttinə, mina “ormanına” dirənməyəcəklər. Bu yollar ona görə uğurlu və xoşbəxtdir ki, Azərbaycan Respublikası dünya tərəfindən tanınan sərhədlərinə sahibdir artıq. Müzəffər ordumuzun apardığı ildırım sürətli şir döyüşü ilə BMT-nin 30 il kağız üzərində qalan 4 qətnaməsi Azərbaycan dövlətinin öz gücü, öz qüdrəti ilə yerinə yetirilmişdir. Dövlətimizin başçısı bütün dünyaya səslənmişdi: “Yoxdu təmas xətti, yoxdu status-kvo!”

Ürəyim tələsir, yol düşüncələrimə bir qədər ara verib oradan, Şuşa səfərindən dönəndən sonra bu yazını qələmə aldığım anlara qayıdır və Şuşaya çatdığımızın ikinci günündə dövlət rəhbərinin M.P.Vaqifin məqbərəsi önündə, Poeziya günlərinin açılışı mərasimində söylədiyi dərin mənalı sözləri qədirbilən oxucunun diqqətinə çatdırmağı özümə borc bilirəm. Əslində, avqust ayının 29-da Şuşanın duru, aydın, saf bir səhər çağında deyilən o sözlər bütün xalqımızı dərindən düşündürmüşdü; ölkə rəhbəri bizə üz tutaraq deyirdi: “Müharibə dövründə bir çoxlarımız, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən, dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də o cümlədən belə fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var,

sadəcə, dözümlü olmaq lazımdır, səbrli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik, bəli, ədalət var, ədalət bərpa edildi. Biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq".

## – 7. –

Hələlik Füzuli rayonunun kəndləri içindən keçirik. Yuxarı Alxanlıya çatar-çatmaz, elə bil ki, insan cənnətdən cəhənnəmə atılır. Hamısı bir-birinə oxşar xaraba qalan binalar, tikililər, qurumuş ağaclar, mərmilərin aymalayıb dağıtdığı torpaq sahələri, suyu quruyan kanallar, arxlar... Elə bil göydən daş yağıb! Nənəsinin qucağında, nənəsi ilə bir yerdə erməni snayperi tərəfindən vəhşicəsinə güllələnən 14 aylıq Zəhra bu kənddə doğulmuşdu, bu yerlərdə boy atmalı, məktəbə getməli, böyük qız olmalı idi!

Nə zamansa üzümlük olmuş tarladakı şpalerlər (üzüm tənəyini bağlamaq üçün sementdən tökmə dirəklər) xristian qəbiristanlığının sınıq-salxaq baş ağaclarını andırır. Sanki bu başdaşıları illər boyu susuz, qidasız, meyvəsiz, qısır qaldığına görə sınıxıb arıqlamış, çöpə dönmüşdülər. Avtobusun arxa oturacaqlarından, öndəki sıralardan uşaqlar (uşaqlara bax ha, çoxumuzun yaşı 50-ni, 60-ı keçib, hər halda 30 il bundan öncə bizə uşaqlar demək olardı, indi isə ömrümüzdən qeyb olan 30 firqət ilini kəsib atmaq olmur) Füzulidə doğulub böyüdüyümə güvənərək hər dəfə xarabazara çevrilən növbəti obaları göstərib soruşurdular ki, Vaqif müəllim, bu hansı kənddi? Axı indi mən necə deyim ki, bu filan kənddi? Uzaqbaşı, yaddaş xəritəmə boylanıb deyə bilirəm bu, Qaraxanbəylidi, bu, Seyidmahmudludu, bu, Mirzəcamallıdı, bu, Füzuli şəhəridi, bu ayrılan yol Merdinli, Yuxarı və Aşağı Seyidəhmədli kəndlərinə gedirdi. Sonra yaddaşımda digər adlar sıralanır: Şəkərcik, Dövlətgarlı, Qarammədli, Zərgar, Yuxarı Yağlıvənd, Dilağarda və yenə xəyali xəritəyə görə güman edirəm ki, Qırmızı Bazardan ötəndə gədiklər, əl-ətək yamaclar bitib qurtaracaq və biz gerçək dağlara qalxacağıq.

Həqiqətdən, qorxunc mənzərələrdən sarsılan yolçuların yeganə təsəllisi şüşə kimi hamar səfər yolunun olmağıdır. Yoxsa ki, Füzuli deyilən cənnətməkandan heç nə qalmayıb, hamısını dağıdıblar, sağ da, sol da küllü-kuf olub.

Yaşayış məntəqəsi böyük olduqca, sanki xarabalığın şəkli, fotosu ekranda iri plana çəkilir.

Və birdən, demək olar ki, eyni anda o möhtəşəm tikilini gördük və dərhal da tanıdıq; Zəfər yolunun sol əlində yeni beynəlxalq aeroportun binası görünürdü. Aralıdan baxanda hava alanı bütövlükdə uçuşa hazırlaşan gümüşü rəngli, nəhəng uçağı xatırladırdı. Onu da deyim, biz Şuşadan Bakıya dönəndən 3-4 gün sonra, daha dəqiqi, sentyabr ayının 5-də Füzuli Beynəlxalq Hava Limanına sınaq uçuşu edən təyyarənin yumşaq, uğurlu enişini saniyə-saniyə, anbaan və sevinc yaşları içərisində seyr edəcəkdik. Göz yaşları içərisində fəza xoşbəxtliyi...

Həmin kadrlara baxanda gözlərimin yaşarmağı altmışdandı, ya nədəndi? Əsla! Həssaslıq və kövrəklik bizim sənətimizin səciyyəsidir; axı Şuşaya səmt götürən bu bəxtəvər karvanın hər bir üzvü kimi, azdan-çoxdan mən də yaradıcı insanam.

Həm də onlar, yaradıcı insanlar göy üzünə qalxmağı, xəyalən oralarda olmağı sevərlər. Deməli, ona görə gözlərimi yaş boğub ki, indən sonra Bakıdan, İstanbuldan... nə bilim haralardan Füzuliyə, doğma yurduma göy üzüylə, uça-uça gələcəyəm. Tək mən yox, hamı, hamı... şair olacaq, millətimiz, qonaq-qaramız istəyəndə göy üzündə uça biləcək!

Köndələnçayın yaratdığı, sözün doğrusu, öncələr heç fikir vermədiyim, bir-birinə bitişik gölləri gördüm. Qaraköpəktəpəni tanıdım! Füzuli şəhərinin tən ortasından keçirdik deyəsən. Çünki orada bütün yan-yörə yerlə yeksan olmuşdu. Gur bir xarabazarlıq! Dağıntı içərisində hələ də müəyyən hissəsi salamat qalan bir arka ucalırdı. Şərti olaraq yerində qalan, divarına “Araz” qəzetinin redaksiyası lövhəsi yapışdırılmış didik-didik hörgünü sosial şəbəkədə yetərincə paylaşmışdılar deyə, oranı dərhal tanıdım. Özümdən asılı olmayaraq ayağa qalxıb bizi Şuşaya aparan avtobusun içərisinə səsləndim: “Uşaqlar, baxın, bax ora dediyim “Araz” qəzetinin redaksiyasıdır.”

“Araz” qəzetinin redaksiyası... 1970-ci il... 8-ci sinifdə oxuyurdum. Həmin vaxta qədər poçtla göndərdiyim bir neçə xırda xəbər “Araz”da işıq üzü görmüşdü: “Vaqif Quliyev” imzası ilə. Hətta bir il sonra fəallığımı dəyərləndirib göndərdiyim xəbərin altına imzamdan sonra “müxbir postumuzun üzvü” deyə yazmışdılar. Və belə təqdimata görə aylar boyu xoşbəxt olmuşdum. O da yadıma gəlir ki, müəllimlərim, kənd adamları məni bu münasibətlə təbrik eləyir, xüsusi bir hörmətlə yanaşır və elə bilirdilər ki, qəzetdə işə girmişəm.




Sonra ilk dəfə redaksiyaya ayaq basdım. Həyatda canlı olaraq ilk dəfə gördüyüm qəzet işçiləri, jurnalistlər, məktublar şöbəsi, Kərəm Hətəmov, Xurşud

Babayeva... Ardı ayrı bir yazının mövzusudur. Hələliksə deyim ki, avtobusdakı Zəfər yolu yoldaşlarım Füzuli şəhərinin içindən keçəndə "Araz" qəzeti redaksiyasını bu dəhşətli xarabalıqdan tapıb üzə çıxarmağıma ən azı mənim qədər əhəmiyyət vermişdilər. Niyə? Çünki onlar da qələm sahibləri idilər, onlar da haçansa kənddən-kəsəkdən çıxıb qələmə pənah aparmışdılar və nəhayət, onlar da nə zamansa ilk şeir, hekayə, məqalə dəftərlərini qoyun-qoltuqlarına doldurub Ağdamda, Kəlbəcərdə, Laçında, Şuşada... hansısa bir redaksiyanın qapısını şiddətli ürək döyüntüsü ilə açmışdılar.

### *– 8. –*

Maşın dolama yollarla erməni atəşindən, bir növ, özü-özünü qoruyan meşəyə girəndə Bakıdan çıxdığımızdan hardasa dörd saat keçmişdi. Bura çatanacan qonşu oturacaqlarda əyləşən şair, tələbə yoldaşım Adil Cəmillə, tənqidçi Əsəd Cahangirlə bir çox məsələləri çözmüşdük, çağdaş ədəbiyyatımız, dünya düzəni barədə danışıb bir-birimizdən nisbi də olsa doymuşduq. Susqunluqdan bəhrələnib, sol əlimlə dərin dərələrə, dərələrdən o tərəfdə ucalan şiş qayalara, dağlara baxan pəncərənin pərdəsini üzügeri sivirdim. Artıq bu, Şuşaya gedən Zəfər yolunun mənim nəzərimdən görünən mənzərəsi idi...

Məhz indi daha dərindən fərqinə varırdım ki, nə üçün münaqişəyə təhrik edilmiş tərəf olaraq Azərbaycan dövləti otuz illik Qarabağ savaşı boyunca münaqişənin digər tərəfinin qondarma Dağlıq Qarabağ Respublikası deyil, Ermənistan dövləti olduğunu ara vermədən təkrarlamışdır?! Nə üçün bu durumu təkidlə, gur səslə dünyanın kar qulağına çatdırmaq istəmişik? Nə üçün Ali Baş Komandan – Şuşasız Qarabağ olmaz! – israrı ilə 10 noyabr 2020-ci il tarixli üçtərəfli razılaşmaya imza atmışdı? Cəmi 5.5 kv. kilometr ərazisi, 5 min nəfər əhalisi olan Şuşa niyə, nə səbəbə bu qədər əzizdir?

Hələ baxın, hərəkəti hiss etdirməyən, rahat yolla şütüyüb gedən maşın karvanının Şuşaya yolu mənə görə sanki tarixin içindən keçib gedir. Belə bir düşüncə də var beynimdə; bəzən insanlar unikal tarixi, ədəbi-bədii sərvətlər, şəxsiyyətlər haqqında mövcud bilgiləri anlatmaqdan daha çox, ümumi epitetləri sadalamağa üstünlük verirlər. Niyə yeri gələndə Şuşanın, Ağdamın, Kəlbəcərin... tarixi, orada baş verən hadisələr barədə söz açılmasın. Lap bir çox bəlli tarixi faktları təkrarlamaq hesabına olsa belə, əxz edilmiş tarixi bilgiləri vaxt, nəsil baxımından yenilənən oxucu qruplarına çatdırmaqdan ehtiyatlanmağa lüzum yoxdur. Tarixi dəlil-sübutlar qələm adamları üçün daimi istinad nöqtəsidir, dönə-dönə müraciət edilən ümumi sərvətdir. Əslində, bu yanaşma bəşəri və milli sərvətlərə münasibətdə həm də bir maarifçilik işidir. Həqiqətən də Şuşaya yaxınlaşdıqca, hər kəsə bəlli olan, o sıradan mənim də oxuyub öyrəndiklərimdən əxz olunan tarix bütün hissiyyatımı maqnit kimi özünə doğru çəkir...

Nadir Şah Əfşarın ölümündən sonra (1747) xanlıqlara parçalanan Azərbaycanın 150 illik tarixini Qarabağ xanlığının, Şuşanın tarixindən ayrı

təsəvvür etmək olmur. O illərdə Şuşa yalnız Qarabağ xanlığının deyil, bütünlükdə Azərbaycan tarixinin ali məqamlarından biri olmuşdu.

Zəfər yolu bizi ora aparır – Azərbaycan tarixinin ali məqamına. O yerə ki, bizim igid, cəsur əsgərlərimiz Şah Qacarın, onun ordu sərkərdələrinin 80-100 minlik qoşunla ala bilmədikləri o sərt ucalığı sıldırımlardan keçərək, qayalardan dişlə-dırnaqla yapışaraq, ayrı bir sursatla yox, qeyrət, namus, şərəf silahıyla almışdılar.

Nədənsə bir daha sakit baxışlarla səfər yoldaşlarımı süzür və inanmaq istəyirəm ki, bir azdan o möhtəşəm şəhərə yetişən 150-dən çox mədəniyyət, ədəbiyyat xadiminin hər biri bu qədim-qayım şəhərin tarixini və dəyərini dərindən bilir.

Hələ Şuşaya yola düşməzdən bir qədər əvvəl "Azərbaycan" jurnalının 8-ci sayında oxuduğum bir ədəbi düşüncə yazısını – İntiqam Qasımzadənin Şuşadan danışan həzin, təsirli qeydlərini xatırlayıram: "Qarabağın dolayları". Sanki o yazını oxumadım, içdən gələn bir nəğmə kimi dinlədim. İlk dəfə Şuşada – ana yurdda şirinçayın dadından xoşbəxt olan uşağın gözündən axan yaşda vaxtın, dövranın acılığı da vardı məncə, özünün uşaqlıq illəri keçən bir şəhərdə bircə nəfər də olsun uşaq görünməməkdən doğan əndişə də, ana yurdu, ana həyəti tapıb ziyarət etmək borcundan doğan duyğular da... Bir sözlə, yazıçının qələmə aldığı dolaylar hekayəti doğma şəhərə sevgidən, şəfqətdən yaranmış bir pritça, publisistik, publisistik olduğundan daha artıq ədəbi örnək idi...

## – 9. –

Şuşanın şərəfli varlığını və tarixini ilk dəfə canlı olaraq 1971-ci ildə, orta məktəbin doqquzuncu sinfində oxuduğum zaman ziyarət etmişdim.

Yayın ortaları idi. İmtahanları, bizim vaxtların dili ilə desək, müvəffəqiyyətlə verib onuncu – sonuncu sinfə adlamışdıq. Mükafat olaraq hər valideyn öz uşağının tənsibinə on-on beş manatın başından keçib yığılan kom pulu məktəbimizin dörd tarix müəllimindən ən gəncinə – Məhər müəllimə vermişdilər ki, bizi bir günlük Şuşa səfərinə aparsın və axşam şər qovuşanda kəndə qaytarıb yiyələrinə təhvil versin.

Uçmağa qanadımız yox idi. Məktəb yoldaşlarımın bir çoxunun adlarını da, simalarını da unutmuşam. Bəlkə ona görə ki, o zaman düşüncəmdə yalnız Şuşanın xəyalı imiş?! Nə bilim. Xatırlayıram ki, təqribən iki saat ərzində Arazboyu kəndlərdən, Horadiz qəsəbəsindən, Kənd Horadiz, Aybasanlı, İşıqlı kəndlərindən, Füzuli, Çartaz, Martuni, Ağdam, Əsgərandan, Xankəndinin böyründən keçib dolama yolla Şuşa şəhərinə yetişdik. İlk ziyarət etdiyimiz yer Gövhər ağa məscidi oldu. (Sonralar bildim ki, Gövhər ağa məscidi ikidir – Aşağı və Yuxarı Gövhər ağa məscidləri). Qarşısında yığcam, dairəvi, oturacaqlı, güllü-çiçəkli meydançası olan məscid binası qoşa minarəsini, içindəki hüzuru, dini məkanlara məxsus qoxunu saxlasa da tarix və diyarşünaslıq muzeyi sayılırdı və biz məktəblilər də məscidə deyil, muzeyə daxil olurduq.

O zamanlar bizim Şuşadan 70-80 km aralıdakı kəndimizdə də məscid var idi, özü də ikisi. Birini qarışıq mallar mağazası eləmişdilər; Leninin seçilmiş əsərlərindən tutmuş, allı-güllü Çin yaylıqlarına, Kəlbəcərdən gətirilən "İstisu"ya, Naxçıvandan daşınaraq eləcə dükan-məscidin qarşısında qalaqlanan, hələ kirkirədə çəkilib üyüdülməyən qaya duzuna, "Badamlı" suyuna qədər nə istəsən vardı. Kəndin yuxarı başındakı məscidə isə pambıq tarlalarına səpmək üçün herbisit, DT, xlor və digər dərmanlar saxlayırdılar deyə, məhərrəmlik ərəfəsində o anbar-məscidi nə qədər təmizləyib qaydaya salsalar da, kimyəvi maddələrin qoxusundan baş çatlayırdı. Nəsə, bu mənzərə də yazı məqsədiylə gələcəkdə üstünə qayıdılası ayrı bir təfsilatdır. Elə bir təfsilat ki, bizim pestisid, xlor iyi verən kənd məscidində məhərrəmlik mərasimi təşkil etdiyinə görə Şeyx Əli deyilən mömin Bəhmənli əhlini rus sərhədçiləri tutub salmışdılar zastavanın qauptvaxtına, onun ordan buraxılması üçün bütün kənd ayağa qalxmışdı.

Hələ ki, xəyalım düz 50 il bundan öncə yayın ortalarında 16 yaşlı bir yeniyetmənin, orta məktəb şagirdinin qədəm qoyduğu həmən o Gövhər ağa məscidinə sığınıb. Divar boyu üzü şüşəli vitrinlər altına salınan, şəhərin yarandığı gündən ötən əsrin 70-ci illərinə qədər Şuşanın tarixini, inkişafını, gəzməli-görməli mənzərələrini əks etdirən məlumat lövhələrini xatırlayıram. Yadıma gəlir, muzeyə girəndə sağ əldə daş döşəmədən bir qədər hündürə qalxan pyedestal üzərində lüləsi bir metr, ya metr yarım irəli çıxan ağır, zirehli top qoyulmuşdu. Məncə o top poladdan tökülmüşdü, üstəlik, böyründə iki-üç dənə şarşəkilli mərmiləri də vardı. Bəlkə də Qarabağ xanlığının mövcud olduğu 75 il ərzində (1747-1822) bu və bu qəbildən silahlar (orada müxtəlif növ tüfəng, qalxan, qılınc, zirehli geyimlər, dəbilqələr də sərgilənirdi) Şuşa qalasını, xanlığın sərhədlərini işğalçılardan, lap olsun imperiya yaratmaq istəyən, kökü kökümüzdən olan soydaş fatehlərin hücumlarından qoruyarkən çox kara gəlmişdi.

Yeri gəlmişkən, acı da olsa deməliyəm ki, bizim orta, eləcə də ali məktəblərdə təhsil aldığımız 60-70-ci illərdə nəinki Qarabağın, Şuşanın tarixi öyrədilmirdi, hətta büsbütün Azərbaycan tarixi bir növ yardımçı fənn kimi idi, xalaxətrin qalmasın, cüzi bir saat qrafiki ilə proqrama salmışdılar. Əvəzində şagirdlər, tələbələr əsas hissəsi Rusiyanın guya qədim tarixinə (İqor polku, Aleksandr Nevski, Böyük Pyotr, Yemelyan Puqaçov, Stepan Razin...) həsr olunmuş "SSRİ tarixi"ni əzbərlədirdilər, "Sov.İKP tarixi", "Elmi kommunizm", "Siyasi iqtisad" fənləri öyrədilirdi. Öyrənməmək olmazdı, çünki semestrin sonunda tələbəni qılınc kimi kəsən imtahanlar gözləyirdi.

Sonralar əksər oxumuşlarımız kimi, Qarabağın, Şuşanın tarixinin haradan başlayıb necə davam etdiyini öyrənmək fikriylə, demək olar, öz cəhdimlə A.A.Bakıxanovun "Gülistani-İrəm", Mirzə Adıgözəl bəyin "Qarabağ tarixi", Mirzə Camal Cavanşirin "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair" kimi əsərlərlə, eləcə də Mirzə Yusif Qarabaği, Mir Mehdi Xəzani, Mir Mövsüm Nəvvab və digərlərindən qalan mənbələrlə tanış oldum.

Molla Pənah Vaqifin, Qasım bəy Zakirin, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Əhməd bəy Ağayevin, Üzeyir bəy Hacıbəyovun yaradıcılığı, xüsusilə Yusif Vəzir Çəmənzəminlinin "Qan içində" romanı, Azərbaycan sovet yazıçılarının – Səməd Vurğun ("Vaqif"), Əli Vəliyev ("Budağın xatirələri"), İlyas Əfəndiyevin ("Xurşudbanu Natəvan") əsərləri tarixi mənimsəmək baxımından boşluqları müəyyən qədər doldururdu. Hələ mən Böyük Bəhmənli kənd orta məktəbinin yuxarı sinifindəykən "Ədəbiyyat dərnəyi"mizin rəhbəri, rəhmətlik Mətləb Kərimov dərsdənkənar vaxtlarda Əyyub Abbasovun "Zəngəzur" romanının, C.Cabbarlının "1905-ci ildə" pyesinin müzakirələrini təşkil edir, sözə başlayanda Qarabağ, Şuşanın tarixinə dair olmuşlardan da danışırdı.

Sonralar bizim istedadlı nasirlər, publisistlər tərəfindən yaradılmış bir çox canlı, təsirli əsərləri oxuduqca, sanki biz Qarabağa, o zamanlar hər qarışı gülüstan, meyvə, tut bağları, palıdlı, çinarlı meşələri olan, üzüm, taxıl, pambıq tarlaları, biçənəkləri göz işlədikcə uzanan, yazdan payızın sonunacan yaylaq-qışlaq yollarında hərəkəti çətinləşdirən on minlərlə malqara, qoyun-quzu sürüləri axışan bu varlı, cənnət torpaqlara ən qırılmaz tellərlə bağlanırdıq. Yadıma salıram; Sabir Əhmədli, Anar, Elçin, Mövlud Süleymanlı, İsa İsmayılzadə, Sabir Rüstəmxanlı, İntiqam Qasımzadə, İlhami Cəfərsoy, Məmməd Oruc, Seyran Səxavət, Aqil Abbas, Mustafa Çəmənli, Əli Əmirli, Nemət Veysəlli, Əli Mahmud, Ələmdar Quluzadə, Vasif Quliyev, Elçin Hüseynbəyli, Mehriban Vəzir, Adil Cəmil, Rəşad Məcid Qarabağın şərəfli keçmişi ilə yanaşı vətənimizin əziz, müqəddəs parçasının nisgilini də bəzən qəzəbli, hər zaman yana-yana, bəzən tarix pəncərəsindən seyr edərək, bəzən də real günlərin ovqatı içərisindən boylanıb canlandırırdılar. Tarixi-mədəni Azərbaycandan, xüsusən Qarabağın tarixindən, mənəvi sərvətlərindən bəhs edən iki kitab isə hər zaman masam üzərində olur. Yorulmaz tədqiqatçı, musiqişünas, tarixçi Firudin Şuşinskinin "Azərbaycan xalq musiqiçiləri" və "Şuşa" kitabları. O, bu əsərləri həqiqətən də vicdanının çağırışı ılə, xalqımız, mədəniyyətimiz naminə qələmə almışdır. İş elə gətirdi ki, bir neçə il əvvəl milli muğam sənətimizin inkişafında misilsiz xidmətləri olan Cabbar Qaryağdıoğlunun həyat və yaradıcılığından bəhs edən sənədli povest üzərində işlədim. Mövcud ədəbiyyatı öyrənərkən yəqin etdim ki, Firudin Şuşinski özündən əvvəlki məlumatları, arxiv sənədlərini o qədər dərindən araşdırıb və öz kitablarında o qədər mükəmməl ehtiva edib ki, sonradan qələmçalanlar mövzu üzrə demək olar, bir mənbə kimi ona əsaslanıblar, yeniliklər isə cüzidir! Mən Mədəniyyət və Turizm Nazirliyində çalışarkən Firudin Şuşinskinin "Azərbaycan xalq musiqiçiləri" kitabının yüksək səviyyədə, təkrar çapı ilə əlaqədar Ədəbiyyat və İncəsənət Arxivinin direktor müavini, tədqiqatçı Aslan Kənan Baş nazirin müavini, xalq yazıçısı Elçin müəllimə müraciət etmişdi. Elçin müəllim məsələyə əlbəttə ki, müsbət rəyini, kitabın Nazirliyin vəsaiti hesabına çapının zəruriliyini bildirib tapşırıq vermişdi. Bu unikal əsər uzun illərdən sonra, latın qrafikası ilə ilk dəfə təkmilləşdirilmiş halda işıq üzü gördü.

### – 10. –

Şuşaya üz tutan dolayların verdiyi fürsət və sürət imkanı çərçivəsində mübarək Vaqif Poeziya Gününə tələsən karvan dağıdılmış kənd və qəsəbələrin içindən, böyründən keçdikcə, sanki sərnişinlər dözüm, səbr nümayiş etdirirdilər. Mənə elə gəlirdi ki, məhz indi Şuşa səfəri nəzərə alınmaqla biz hamımız birlikdə vahid varlığın tikə-parça olmuş hissələriyik. Yolboyu, eləcə də Şuşanı havalı kimi dolaşdığımız üç gün ərzində beş-on adamın xatirəsi bütövləşəndə, bu, yaxud başqa xarabazarlığın hara olduğu xatırlanır,



dəqiqləşirdi. Nə baş verib, yoxsa bizim yaddaşımız da xaraba qalıbmış?

Bir azdan Daşaltı görünəcək, dolaylar kifayət qədər sərtdir, yarğanlarda, meşənin dərinliklərində işçi qüvvəsi, hər növ maşın, texnika görünür, şaxələnən, Zəfər yolundan ayrılıb hərəsi bir səmtə üz tutan yolların doğuluşunu görmək necə də xoşdur. Hərdən deyirəm, ay Allah, o ağırlıqda qurğular sərt relyeflərə necə dırmaşıb?

Heç necə, sadəcə belə, 44 günlük İkinci Qarabağ döyüşlərində, Zəfər savaşında canını vətənə qurban deyən igidlərimiz yalçın qayaları, sıldırımları, Şuşada əqrəb yuvası quran ermənilərin silahlı təhdidlərini necə dəf edib Qarabağın tacını əjdaha ağzından almışdılarsa, bax indi qeyrətli Azərbaycan oğulları ən sərt eniş-yoxuşları ram edərək yol çəkir, körpü salır, tunel tikirlər.

Sərt, mürəkkəb relyefləri ürəkdən-ürəyə görünən yollar kimi bir-birinə calayan, Füzulidən mənbə götürüb Şuşanı nura qərq edən yüksək gərginlikli elektrik dirəklərini hərdən gen açılmış qartal qanadlarına oxşadıram.

Mən Qırmızı Bazardan keçməklə Füzulidən Şuşaya gedən qədim yolun – Molla Nəsrəddin yolunun olsa-olsa, sözünü-söhbətini dinləmişdim. İndi bu yol tamamilə yeni bir statusda, dünyanın ən etibarlı, mənzərəli yolları ilə bəhsə girəcək bir şəkildə bizi ora, ulu babalarımızın yurduna aparır.

Nədənsə həmişə ürəyimdə qəribə və məxsusi bir İmarət Qərvənd, Şahbulaq, Bayat, Ağcabədi, Ağdam, Əsgəran, Xocalı, Malıbəyli, Şuşa... sevgisi olub.

Sanki qan çəkir.

Əlbəttə, bu hiss südü, qanı, çörəyi, suyu ilə ərsəyə yetdiyim Bəhmənli elinə bəslədiyim övlad hissiyyatına qətiyyən təsir göstərmir. Amma qanın çəkməyi də bəzən ciddi səbəblərlə bağlı olur, təhtəlşüur təcəlla edir deməli!

Yaradıcılıq, tədqiqatçılıq axtarışlarının tərzinə görə bizim günlərin Firudin Şuşinskisini xatırladan Ənvər Çingizoğlunun həmmüəllifi olduğu bir kitabı, "Cuvarlı və Cuvarlılar" tədqiqatını əldə etmişəm. Çingiz orada belə bir məlumatı qələmə alıb:

***"Məşədi Aslan bəyin törəmələri".***

XIX əsrin ortalarında Şuşada Əhməd bəy adında bir tacir yaşamışdır. O, tez-tez İrana gedər, müxtəlif mallar gətirər, Şuşada və ətraf kəndlərdə satardı.

Əhməd bəy adəti üzrə yenə də İrana gedir, lakin bir daha geri qayıtmır.

Bu hadisədən sonra Əhməd bəyin oğlu Məşədi Aslan bəy Şuşanı tərk edir və Cuvarlı kəndini məskən seçir. Məşədi Aslan bəy Şuşada papaqçılıq sənətini kamil öyrənə bilmişdi. Cuvarlıya gəldikdən sonra papaqçı kimi fəaliyyətə başlamışdır. Məşədi Aslan bəy Əhməd bəy oğlu Cuvarlı kəndində dünyasını dəyişmişdi.

Cuvarlı mühitinə tezliklə alışan Məşədi Aslan bəy iki dəfə ailə qurur. Birinci nikahdan onun Şəkər xanım adında qızı dünyaya gəlir. O, ikinci dəfə Fatma xanımla ailə qurur. Bu nikahdan onların Qunça xanım, Zinyət xanım və Salman bəy adlı övladları dünyaya gəlir.

Salman bəy Məşədi Aslan bəy oğlu Cuvarlı 1897-ci ildə Cəbrayıl qəzasının Cuvarlı kəndində anadan olmuşdur. İbtidai təhsilini Cuvarlıda molla məktəbində aldıqdan sonra Qarabulaq kənd məktəbində oxumuşdur.

Salman bəy Cuvarlı Qaryagin rayonunun dövlət orqanlarında, dairə icra nümayəndəliyində, daxili işlər orqanlarında və ticarət təşkilatlarında işləmişdir.

Cuvarlı camaatının maariflənməsində Salman bəyin də rolu olmuşdur. O, Hüseyn bəylə birlikdə məktəb binasında bir neçə dəfə teatr göstərilməsinə nail olmuşdu.

Şəxsi vəsaiti hesabına səhnə üçün lazım olan pərdələri almışdı. O zaman xidməti işi ilə əlaqədar Bəhmənli kəndində işləməsinə baxmayaraq Cuvarlıya gələr, teatrların göstərilməsinə nail olardı. Kəndin o vaxtkı cavanları Salman bəyin xidmətlərini qiymətləndirərək ona şeir qoşub xorla oxuyardılar:

Salman əmi, on arşın ağ
Səhnəmizin yolunda!

Salman bəy Cuvarlı 1935-ci ildən etibarən Qaryagin (indiki Füzuli) şəhərində yaşamış, dövlət işlərindən ayrıldıqdan sonra ticarətçi kimi fərdi ticarət işləri ilə məşğul olmuşdur.

1919-cu ildə Salman bəy Əsmət xanım Paşa bəy qızı ilə ailə qurmuşdur. Bu nikahdan onun Yusif bəy (İkinci dünya müharibəsində itkin düşüb), Nəsib bəy (ali təhsilli aqronom, Füzuli Rayon Toxumçuluq İdarəsinin rəisi), İnqilab bəy (Arayatlıda məşhur 1 May kolxozunun baş baytarı), İnzibat bəy (öz əlinin zəhməti ilə dolanan sadə Füzuli sakini), Tamara xanım, Rəna xanım (İriş), Dürdanə xanım (Dürüş), Nəcimə xanım (Füzuli rayonunun ən güclü riyaziyyat müəllimlərindən biri) dünyaya gəlmişlər.

Eyni zamanda Salman bəy ikinci dəfə Dilbər xanım Maşad Səfəralı qızı ilə ailə qurmuş və bu nikahdan İttifaq bəy adında bir övladı dünyaya gəlmişdi."

Ənvər Çingizoğlunun mətnini burda yarımçıq saxlayır və bildirməyi borc sayıram ki, Əhməd bəyin, Aslan bəyin, Salman bəyin İttifaq bəydən olan və davam edən sonuncu törəmələri mən – Vaqif Bəhmənli və mənim bacı-qardaşlarımdır.

### *– 11. –*

Budur, hərəsinin içərisində 12 nəfər Şuşa həsrətlisi olan, yəni bizi daşıyan 15 (ən azı) avtobus anbaan o qeyrət qalasına yaxınlaşır.

Heç kimin Şuşa sevgisini bir başqasının bu müqəddəs məkana ehtiramından ayırıb yuxarı tutmaq olmaz və zatən buna ehtiyac da yoxdur. Hələ yoldaykən Vaqif Poeziya Günlərinin həyəcanını bəribaşdan yaşayan bu dəstənin hər hansı bir üzvünü tarix, tale o birindən fərqləndirmir. Hamımız – yaşından, ədəbi təcrübə və uğurlarından asılı olmayaraq, bu vətənin, bu Qarabağın, bu Şuşanın övladlarıyıq! Mənsə heyətimizə daxil olan bir çoxları kimi geoloji-bioqrafik mənsubiyyətinə görə nəslimə-kökümə borcluyam həm də. Sadə bir səbəb; ulu babam o uzaq illərdə doğulduğu Şuşa şəhərindən ticarət adıyla çıxıb İranda (Cənubi Azərbaycan) it-bata düşən bir kişinin yadıcası yox, kötücəsiyəm! Digər tərəfdən, Pənahəli xandan 200 il sonra Sarıcalı-Cavanşirlərlə eyni kökdən olan Bəhmənli elində doğulmuşam. O yerdə ki, Şuşanın bünövrəsi qoyulandan çox illər qabaq Araz qırağında bir el toparlanmışdı, əsli böyük Türküstana bağlı bir qövm geniş bir əraziyə sahiblənmişdi. O zamanlar İran da daxil, qüdrətli bir türk imperiyası varmış, həm də ona Nadir şah Əfşar hakim imiş. Pənah xan nəsli o dərəcədə sayılıb-seçilirmiş ki, türk hökmdarı Nadir şah Pənahəli bəyi və onun qardaşı Fəzləli bəyi sarayının içinə almışdı. İctimai-iqtisadi formasiyanın mərhələsindən asılı olmayaraq saray həmişə fitnə yuvasıdır...

Şuşa şəhərinin banisi, bilindiyi kimi, Pənahəli bəydir. O, bildiyimiz tarixə görə, 1693-cü ildə Cavanşir elinin Sarıcalı oymağında varlı, imkanlı bir ailədə doğulub. Oxuduqlarımda bir mübhəmlik var. Belə çıxır ki, Sarıcalı, Cavanşir və Bəhmənli qollarından ibarət elat bir kökdəndir, sanki kökü eyni olan bu nəslin biri simanı, biri fərasəti, biri yurdu nişan verir. Gümanımca, belə ola bilər, Bəhmənli eli – Sarıcalı – Cavanşirli qolu. Əlbəttə, tarixi bir dəlil mənasında demək olar ki, tam dayanıqsızdır, bir halda ki, gəlib, deyirəm; bizim Bəhmənlidə yalan olmasın, on adamdan birinin adı Cavanşir

idi (söhbət 100 il bundan öncəki min evli Bəhmənlidən gedir). Min evin hərəsində 6-7 uşaq saysaq, 7-8 minlik bir mahaldan danışmalıyıq.

Şuşa o şəhərlərdəndir ki, tarixi üzündən oxunur. Firudin Şuşinskinin araşdırdığı mənbələrə əsasən, ilk vaxtlar banisinin şərəfinə Pənahabad adlanan şəhərin yerini bəyənib-seçən Pənahəli xan Bayat və Şahbulaq qalalarını tikəndən qısa müddət sonra 1750-ci illərin əvvəllərində Şuşa qalasının inşasını başlatmışdı. Bilindiyi kimi, Pənahəli xanın babasının da adı Pənahəli bəydir, atası İbrahimxəlil ağadır, özü yenə Pənahəli bəy(xan)dir, oğlunun da adı İbrahimxəlildir. Fərsiz sələfin adını əbədiləşdirib yaşatmağa həvəs göstərən az olur. Ulu adların bu qaydada nəsildən-nəslə ötürülməsi Pənahəli xana məxsus olan, əsrlər boyu yaşayıb-yaradan, var olan bir qövmün nüfuz və qüdrətindən xəbər verir.

Bəzi tarixçilərə görə, Pənahəli xanın əcdadları Çingiz xan sülaləsinə bağlıdır.

Mir Mehdi Xəzanı Pənahəli xanın Hülakü xanının nəvəsi Arqun xan nəslinin törəməsi olduğu ehtimalını irəli sürüb.

Digər tarixi məxəzə görə, Cavanşir elatı Türküstandan gəlib, onlar Oşirxan tayfasına mənsubmuş. Oşirxan Oğuz xanın dördüncü oğlu Yıldız xanın oğludur.

Mən Bəhmənlidə elə tayfalar tanıyıram ki, onlar igidliyinə, ağzıbirliyinə görə seçilirlər. Həmin tayfalardan biri Qarçığaylılar adlanır; siz bu və digər tirədən olan insanların isimlərinə baxın: birinci tirə – Aşur, Ulduz, Dayandur, Bayandur, Burcubay, Bayaz, Osman, Cavanşir; ikinci tirə – Nuğay, Tuğay, Xasay, Qaçay, Humay, Bulul, Azay... Kəndin düz ortasında bir düzənlik var; ora Çalağay adlanır! Mənim uşaqlıq illərimdə bizim kənddə yeni doğulan uşaqlara ən çox qoyulan adlardan biri də Pənah idi.

Məncə, bu adlar, söylənişlər Bəhmənli elinin, eləcə də Sarıcalı, Cavanşir tayfalarının qədim türk-oğuz xalqı ilə bağlılıq düşüncəsini xeyli qüvvətləndirir. Azərbaycanda, dəqiq sayını bilmirəm, bir neçə Sarıcalı kəndi var. Onlardan biri də Böyük Bəhmənli, Bala Bəhmənli və Mahmudlu deyilən kəndlərin qonşuluğundakı Sarıcalı adlı qatar dayanacağıdır.

Rəhmətlik Qəbil babam Qarabağda olub-keçənlərdən danışanda deyirdi ki, bala, Pənahəli xan bu yerin camaatına simsar olub, onlar buralardan getmədilər. Xanlıqlar ləğv olunana qədər bütün Araz boyu – Qaradonludan tutmuş Mehriyə, Ordubada, Culfaya qədər olan torpaqların Qarabağ xanlığına bağlılığı tarixçilər, xəritəçilər tərəfindən də qeyd olunur. Məncə, söylənilən ərazilər xanlığın qışlağı kimi imiş. İndi də Bizim Bəhmənlidə Xanqızı arxı deyilən suvarma kanalının tirələri qalmaqdadır. Deyirlər, o arxı Xan qızı Natəvan qızıl pulla qazdırıbmış. Əlbəttə, heç kimi kəndimə qohum çıxartmaq, yaxud da obamı əsilzadə nəslə sırımaq fikrim yoxdur. Bu isə həqiqətdir ki, Pənahəli xanın Araz boyundan hərəkətə keçib Qarabağın içərilərində bir-birinin ardınca qalalar yapması, nəhayət, alınmaz Şuşanın bünövrəsini qoyması birxətli gediş deyil. Bəlkə də Pənahəli xanın nəsli öz etnik keyfiyyətlərini hələ də saxlayan sonuncu oğuz tayfalarıdır. Məhz bu oğuz tayfaları XVIII əsrin sonlarından başlayaraq müasir Azərbaycan

xalqının sürətlə formalaşmasında iştirak etmişlər. XVIII əsrdə meydana çıxan Azərbaycan xanlıqlarını müasir Azərbaycan xalqı və millətinin formalaşmasının proloqu da saymaq olar. Deməli, Hülakü xanın 120 minlik ordusuna qoşulan Cavanşirlər qəfil bir partlayış şəklində meydana çıxan tayfa deyil, onlar mənbəyi və mənşəyi bəlli oğuz arealında yüz illər boyu dövran sürmüşlər. Onlar Qarabağın, Qaradağın digər sahibləri – otuzikilər, kəbirlilər, əfşarlar ilə qapı-qapıya, iç-içə yaşayaraq, qohumlaşaraq, o zamanlarda türklərin hakim olduğu, əhalisinin əhəmiyyətli hissəsini təşkil etdiyi İran imperiyasının çiçəklənməsi üçün də qılınc çalmışlar.

Pənahəli xan və onun qardaşı, əqrəbaları dövrün sayılıb-seçilən kəsləri olmasaydılar, deyildiyi kimi, onlar Nadir şahın divanında nüfuzlu vəzifələr tuta bilərdilərmi?

Bir azdan Şuşa görünəcək. Doğrudan, elə yaşayış məntəqələri var ki, xüsusən aranda, sanki görünmür, bir də xəbər tutursan ki, sən onun içindən keçirsən, yaxud hiss olunmadan o məntəqədən adlamısan, o məntəqə geridə qalıb. Amma Şuşa (Şamaxı da elədi) əvvəlcə görünür və bu qəfil görünüş ona mehman olanlarda qəribə bir sevinc, həyəcan hissi yaradır. Mən isə tarixin xəyalı içində hələ də vurnuxur, oxuyub bildiklərimi çək-çevir eləyirəm.

## *– 12. –*

Hə, Nadirin tarixi, tarixi-Nadir məlumdur. 1747-ci il 19 iyun... Bu tarixdən 59 il əvvəl Xorasanda doğulan bir çox illər öncə tayfası Şah İsmayıl tərəfindən Xorasana köçürülən türkün əfşar qolundan olan, özbəklər tərəfindən anasıyla bahəm Xarəzmə sürülən, mübarizələrdə qüdrətli bir igid kimi bərkiyib möhkəmlənən, atlı dəstə yaradıb Xorasana qayıdan, Helat qalasında məskən salan, II Təhmasib tərəfindən qulluğa götürülən, Xorasanın canişini təyin olunan, Ağa Məhəmməd şah Qacarın babası Fətəli xanı şahın əli ilə öldürtdürən, Əfqan şahı Əşrəfi məğlub edən, Gəncəni xarici qoşunlardan təmizləyən, rusları Bakıdan və Dərbəddən qovan, 100 min nəfərin iştirak etdiyi Muğan qurultayında özünü şah elan edən Nadir daha yoxdur, o, çadırında qətlə yetirilmişdir.

Demokratik hakimiyyətlərdə şəxsiyyət nə qədər parlaq, lap düha olsa belə, arxa plandadır. Lakin monarxiyalar, despotizmə dayanan quruluşlar bəzən bir nəfərin, məsələn, hökmdarın ölümüylə dağılır, yerlə yeksan olur. Tarixin dərin qatlarında fürsətlər yaranmışkən, di gəl ki, tarixi-ictimai şəraitin yetişməməsi, əlahəzrət zaman qıtlığından böyük, qüdrətli türk birliyinin meydana çıxmaması bütün hallarda ən azı, acı təəssüf doğurur. Amma hər pisin içində bir yaxşı, hər şərin içində bir xeyir var. Rus və Fars sövdələşməsi ilə parçalanan Azərbaycan, həm o tayda, həm bu tayda xanlıqlara bölünsə də, şimalda, bizim Azərbaycanda məhz xanlıqlar formasında milli dövlətçiliyimizin təməl daşlarının düzülməsində rol oynadılar. Cənubi Azərbaycan xanlıqları bu tarixi milli müstəqillik fürsətini real coğrafiyada, tarixən reallaşdıra bilmədilər.

XX yüzillikdə sərt Sovet rejimi eyni din, eyni dil, eyni tarixi kökə malik iki Azərbaycanın heç olmasa mədəni-mental ünsiyyətlərinin yaranmasına, düşüncə vahidliyinə də maneə oldu, aralaşma, yadlaşma törəndi. Lakin buna baxmayaraq, taleyinə parçalanmaq düşmüş vahid xalqın bir-birinə əcdadların ruhundan gələn məhəbbəti, can atmağı prosesləri kimin necə, hansı istiqamətə yönəltməyindən asılı olmayaraq, əbədidir və daim davam edəcək.

Mən bilirdim, elə səfər yoldaşlarım da 44 günlük müharibədən sonra çəkilən kadrlara baxmışdılar, onlara da bəlliydi ki, İmarət Qərvənddə Pənahəli xanın, İbrahimxəlil xanın, Rzaqulu xanın, Xurşudbanu Natəvanın sərdabələri darmadağın edilib.

Düşünürəm, görəsən Şuşada dağıntıların miqyası hansı həddədir. Qala divarları, Gəncə və İrəvan qapıları çoxmu dağıdılıb? Hərəsinin öz koloriti, bənzərsiz memarlıq elementləri olan məşhur Seyidli, Çuxur məhəllə, Köçərli, Saatlı, Merdinli, Qurdlar, Culfalar məhəlləsinin tanınası bir halı varmı görəsən?

Qarabağ xanlığı, Şuşa tarixin çoxlu sərt sınaqlarına dözüb. Hələ divan mərkəzi Kəbirli mahalında – Bayatda olanda Şəki və Şirvan xanları hücumlar edirdilər.

Arazın o tayından kükrəyib gələn hücumların xronologiyası daha çoxşaxəli və mürəkkəbdir.

Məmməd Həsən xan Qacar, Urmiyalı Fətəli xan Əfşarın Qarabağ xanlığına hərbi yürüşləri uğursuz olmuşdu. Əksinə, Qarabağ xanlığı digər hakim quruluşların ciddi şəkildə hesablaşdığı güc idi. Misal üçün, Kərim xan Zənd Pənahəli xanın yardımı ilə Fətəli xanın ordusunu məğlub etmiş, nəticədə Qarabağ xanının oğlu İbrahimxəlil girovluqdan qurtulmuşdu. Oğulu girovluqdan xilas edən Kərim xan bu dəfə, yəni 1750-ci illərin sonlarında atanı – Pənahəli xanı Şiraza aparıb orada guya ən əziz qonağını himayə adıyla əsir elədi.

1758-ci ildə Pənahəli xanın Şirazda ölməsi, xanın özünü yuxuluğa vurmadığına, ölməyinə tam əminlik naminə onun qarnını yardırıb, cəsədinin içinə ədviyyat doldurması tarixçəsi uzun illərdən bəri haçan yadıma düşürsə, alnımı tər basır, içim isə üşüyür. Bax bu formada, xanlığı 11 il sürən, 65 yaşında özünün ucsuz-bucaqsız, varlı-hallı səltənətindən kənarda, Şirazda dünyasını dəyişən Pənahəli xanın həm özünün, həm də nəslinin faciəli taleyi, böyük fərasət, qəhrəmanlıq sayəsində meydana çıxan, əvvəlində gur bir məşəl, Novruz tonqalı kimi alovlanan, sona doğru isə bax elə gur yanan tonqal kimi də sozalıb sönən ocağı həmişə məni acı bir təəssüf hissinə qonaq eləyir. Təsəlli isə bu olur ki, Pənahəli xan və onun şəcərəsi üçün şəxsi fiziki varlıq önəmli deyil, önəmli olan odur ki, onlar öz zəmanələrində, daşıdıqları missiyanın xarakterinə görə, Azərbaycan tarixinin çox əhəmiyyətli bir hissəsi, qədim salnamənin onda canlı həyat, indi hər kəsə bəlli bir səhifəsi kimi var olublar. Axı xanlıq (xanlıqlar) qeyd-şərtsiz meydana gəldiyi kimi, qeyd-şərtsiz də meydandan getməli idi.

Elə də oldu. Digər yandan isə ən müxtəlif daxili və xarici amillər, obyektiv və subyektiv şərtlər, açıq və gizli səbəblər ucbatından tarixi Azərbaycan coğrafiyasında, deyildiyi kimi, böyük, bütöv türk dövlətini yaratmaq sansı əldən verildi.

Yurd-yuvası dağıdılıb xaraba qoyulduğu halında belə, Qarabağın sanki küləkli havada bir dərya kimi dalğa-dalğa qalxan, enib-yüksələn, dərələnən, təpələnən dəmyə relyefi necə də munis, nə qədər əzizdir?! Xarabalıqlar arasından dikələn yaşıl bürüncəkli görüntülərini çıxmaq şərti ilə, otu-əncəri tamamən solmuş bu təpələr, gədiklər, aşırımlar otuz il bundan irəli bir milyona yaxın insanın dolanışıq yeri, yuvası, bərəkət arzusu, pənahı olmuşdu. Sonra... sonrası işğal, yırtıcı xislətli qonşuların dartıb-dağıtmağı, talan, söküntü...

Bayırda avqustun son iki-üç gününə xas yüksək hərarət, maşının salonunda sərinlik... Amma hər kəsin içində dəqiqəbədəqiqə Şuşaya bir az da yaxınlaşmaqdan, daha doğrusu, Şuşaya yüksəlməkdən doğan həyəcanın istiliyi, qaynarlıq... Maşının sürəti artdıqca mənə son dərəcə maraqlı hekayət gücündə təsir edən, analar söyləyən nağıllar kimi doyulmaz Qarabağ tarixçəsi ilə bağlı duyğularım beynimin çarxında daha sürətlə fırlanır.

İndi deyəsən həqiqi, qəlbi, ormanlı dağların qoynuna qovuşuruq. Yeni mənzərələrdən gözümü ayırmadan, içimdə sual verirəm özümə; hə, qarabağlı balası, harda qaldıq?

Amma hələ XIX əsrin gəlib yetişməyinə xeyli var. Atasının ölümündən sonra İran şahından rəsmi xanlıq titulu almış Mehrəli xanı Qarabağdan qovub xanlığın başına keçən İbrahimxəlil xan 1760-cı ildən 1806-cı ilə qədər (46 il) dədə-baba əmanəti, Pənahəli xan yadigarı bu qədim diyarın hakimi oldu. O, xanlıq taxtına çıxmazdan bir il əvvəl bizim xalqımızın arasında və ədəbiyyatımızda Vaqif adının ilkincisi, ən əsası isə realist-milli poeziyamızın banisi Molla Pənah Vaqif ailəsi ilə birlikdə Qarabağa köçmüşdü...

Biz bax o Şuşaya gedirdik, Vaqifin yenidən bərpa olunmuş məqbərəsini ziyarətə, Vaqif Poeziya Günlərində iştirak eləməyə gedirdik. O Şuşaya ki, İbrahimxəlil xan və onun ağıllı, tədbirli vəziri Molla Pənah Vaqiflə birlikdə həm daxili (Şimali Azərbaycanın coğrafiyasındakı xanlıq və məlikliklərin hakimləri), həm də xarici (İran, Rusiya və Osmanlı Türkiyəsi) istilaçılardan göz bəbəyi kimi qorumuşdu. Təbii ki, bu, asan olmamışdı. Qarabağın ağır tarixi buna şəhadət verir. Kərim xan Zəndin ölümündən sonra qardaşları Murtuzqulu və Cəfərqulunun birinin gözünü çıxardan, digərini qətlə yetirən Ağaməhəmməd Qacarın hakimiyyətə gəldiyi bəllidir. Onun sərkərdələrinin və şəxsən özünün başçılığı ilə Qarabağ üzərinə hücumları da məlumdur. Bir ilin içində (1797-ci il) Qacar 100 minlik orduyla Şuşanı işğal elədi, İbrahimxəlil xan Car-Balakənə sığındı. Xanlığın idarəsini ələ keşirən Məhəmməd bəy Cavanşir Cıdır düzündə Vaqifi və onun oğlu Qasım ağanı edam etdi. İşğalçı ordular çəkiləndən bir müddət sonra İbrahimxəlil xan Şuşaya döndü. 80 at yükü ilə Kələntərli mahalına qaçan Məhəmməd bəyi

Kor Məhəmmədhəsən xan aldatdı, onu Qarabağ xanlığının qan düşməni şirvanlı Mustafa xana verdi. Məhəmməd bəy orada öldürüldü. Ümumən Qafqazda həmin dövrlərdə İranın yandırıcı səmum yeli ilə yanaşı, soyuq Şimal küləkləri də əsirdi ki, az sonra bu yerlərdə tufanlar qopacaqdı. Onlar çox kədərlidir; 1804-cü ildə Qarabağ xanlığı Rusiyanın təbəəliyini qəbul edəndən cəmi iki il sonra İbrahimxəlil xan öz evinin içində, ailə üzvləri, xidmətçiləri ilə birlikdə qətlə yetirildi.

### *– 13. –*

Zəfər yolu... Nə qaldı ki Şuşaya? Elə ki, ucalıqlar, o ucalıqlara aparan dolaylar başladı, təşkilatçılardan hansı Allah kömək olmuşsa maşın karvanını durdurdu. Əyləndiyimiz yerdən – yolkənarı geniş meydançadan baxanda gözün dörd çevrəmində daha panoramlı ərazilər görünür, dərələrin qatbaqat dərinliyi, ormanların nəhayətsizliyi, göy üzünün təmizliyi, bir az aralıdakı dağ sıralarının əzəməti tam bir mükəmməlliklə sərgilənir. Əlbəttə, o zaman – 50 il bundan öncə 9-cu sinif şagirdi statusunda, gənc tarix müəllimi Məhərlə Böyük Bəhmənlidən füsunkar şəhərə ilk dəfə yola düşəndə bayaqdan avtobusun içərisində acılığına və şirinliyinə, qüruruna və utancına qərq olduğum Qarabağın, Şuşanın tarixinə dair məlumatım, dediyim kimi, yox dərəcəsində az idi. Bu natamamlıq müəyyən müddət dəyişməz qaldı. İş burasındadır ki, mənim Şuşaya bir dəfə görməklə min könüldən aşiq olmağım illər ərzində daha da şiddətləndi. Lap nə qədər yorğun, üzgün olsam, güzarım dünyanın ən bürkülü bucağına düşsə belə, Şuşa adı gələndə içimdə, ruhumda saf, təmiz, gül-çiçək rayihəli bir mehin, cana qüvvət verən bir rüzgarın baş qaldırdığını hiss edib özüm-özümə təəccüblənirdim.

1975-ci ilin yay aylarında jurnalistika fakültəsinin ikinci kursunu bitirib üçüncü kursa keçəndə məlum oldu ki, kursumuzun tələbələrini respublikanın rayonlarında işıq üzü görən qəzet redaksiyalarında təcrübə keçməyə yollayacaqlar. Xatirimə gəlir, o zamanlar Yefrem Saratov adlanan küçədə, indiki Respublika Prokurorluğunun yaxınlığında yerləşən ikimərtəbəli binanın dəhlizində Akif müəllimin başına toplaşıb onun əlində tutduğu siyahıya boylanırdıq. Akif Rüstəmov ADU-nun jurnalistika fakültəsinin dekan müavini idi. Sonralar dekan oldu, indi professordur. Bəlkə elə bu ahənrüba şəhərin bir-iki il öncə yaddaşıma hopan cazibəsindən idi ki, bizim adlarımız və redaksiya adları sıralanan həmən o siyahını, demək olar gözümlə yedim və heç düşünmədən:

– Akif müəllim, məni "Şuşa" redaksiyasına yaza bilərsiniz? – deyə soruşdum.

Arzum çək-çevirsiz nəzərə alındı.

Həmin il iyun ayının ilk həftəsini Bəhmənlidə dincəlib anamın, sözün gerçək mənasında ətirli, kəkilli, nazlı çolpalarından bir neçəsinin "fatihə"sini verəndən sonra bir qədər əvvəl təsvir elədiyim yolla: yəni, Bəhmənli – Horadiz – Füzuli – Çartaz – Ağdam – Əskəran silsiləsini ötüb gündüz saat 10 radələrində, Əbdürrəhim bəy demiş, Şuşanın məşhur avtovağzalına varid oldum.

...Biz Şuşa şəhər Mədəniyyət evinin qarşısında durub işıqlı, gənc gözlərimizlə bir az aralıdakı Güllü bağa baxırdıq. Uzanıb gedən, Meydan deyilən küçənin lap axırında, Bazar başında Gövhər ağa məscidinin qoşa minarəsi görünürdü. Biz biri-birimizin üzünə ləzzətlə gülümsəyib büllur kimi saf, təmiz hava udurduq və bilirdik ki, biz büllur kimi saf, təmiz hava uduruq. İki ili arxada qalan tələbəlik müddətində ən yaxın dostlarım deyə biləcəyim bu gənclər – Qulu Məhərrəmli (Zəngilan), Çingiz Aslanov (Ağdam), mənim kimi (Füzuli) onlar da təcrübə keçmək üçün “Şuşa” qəzetinin redaksiyasını seçmişdilər.

Onu çox gözləmədik. Bir az keçmiş, Famil müəllim gəlib çıxdı. Famil Mehdi bizim fakültədə “Sovet mətbuatının nəzəriyyəsi və təcrübəsi” kafedrasının müdiri idi, onun Şuşaya gəlməyi, bizim onu gözləməyimiz səbəbsiz deyildi: yayın qarşıdakı iki ayında Famil müəllim təcrübəmizə rəhbərlik edəcəkdi. Biz üçümüz, eləcə o dövrdə universitetdə təhsil alan digər tələbələr Famil Mehdini kafedra müdiri, elmlər doktoru, professor olmaqdan daha çox, şair kimi dəyərləndirir və belə bir şöhrətli müəlimimizin varlığı ilə öyünürdük. Üstəlik, o da qarabağlıydı, Ağdamın Sarıhacılı (Sarıcallı!!!) kəndindən. Onun bu şeirini bir çoxları kimi mən də əzbər bilirdim və xəlvətə düşəndə su kimi axıcı misraları səsim olmasa da Segah üstündə qaxsıyırdım.

***Min hava çalınır könül tarımda,***
***Dünyanın nə çoxu, nə azıyam mən!***
***Fəsillər görüşür duyğularımda,***
***İlin həm qışıyam, həm yazıyam mən!***

***Anam Qarabağın, Milin, Muğanın,***
***Siz də mənim kimi eşqilə yanın.***
***Başına döndüyüm Azərbaycanın***
***Dəli Kürüyəm mən, Arazıyam mən!***

***Dinlə "Çahargahı", eşit "Qatarı",***
***Könül dünyamızın sərvəti, varı.***
***Ələsgərin sazı, Qurbanın tarı,***
***Cabbarın, Seyidin avazıyam mən!***

Famil müəllim tələbələri həm rayonun, həm də qəzetin rəhbərliyinə təqdim etməli idi ki, təcrübə keçmək üçün bizə şərait yaradılsın. O zaman rayon partiya komitəsinin birinci katibi Qəşəm Aslanov idi, bu vəzifəyə “Azərbaycan gəncləri” qəzetinin redaktorluğundan gəlmişdi. Deyəsən onu Bakıya çağırmışdılar, yaxud məzuniyyətə çıxmışdı, hər halda, rayonda yox idi. Famil müəllim bizi raykomun hansı katibinəsə təqdim etdi. “Şuşa” qəzetinin redaktoru İsrafil Əbilov da rayonda deyildi, əvəzinə bizi redaktor müavini Qaffar Hüseynova tapşırdılar.

Famil müəllimi bir də iki ay sonra, təcrübənin bitməyinə bir-iki gün qalanda gördük. Əslində, onun bizim başımızın üstünü kəsdirməyinə də elə bir zərurət yox idi. Gözəl, qaynar şəhər, saf hava, maraqlı insanlar, ürəyimizi

titrədən, hər birimizə qəribə bir qürur, yazıb-yaratmaq vəcdi verən redaksiya mühiti ən mötəbər təcrübə rəhbəri, nəzarətçi müəllim sayıla bilərdi.

### *– 14. –*

Bilmirəm necə oldu, üç-dörd gün ötməmiş, İsrafil müəllim – orta boylu, dolu sifətli, koppuş əlli, bilikli və zəngin nitqli redaktorumuz işinin başına döndü. Bizim işdən əvvəlki və işdən sonrakı saatlarımız şəhərin o zamanlar elə də çox olmayan yeməkxanalarında, ən azı, çayxana masası arxasında, Elman Mirzəyevin (Elsevər), Əli Mahmudun, Ziyəddin Məhərrəmovun… qatqısı, İsrafil müəllimin rəhbərliyi ilə keçirdi. Redaktorumuz babat vururdu. Biz – üçüncü kurs tələbələri, hələ ki içkinin, siqaretin dad-tamını bilmirdik. İsrafil müəllimin Şuşanın tarixi, tarixən güclü olan ədəbi-mədəni həyatı, Nəvvab, Vaqif, Üzeyir bəy, Xan nəsli, muğam ustadları barədə söhbətləri isə həqiqətən ləzzətli və unudulmaz idi. Hərdən kefi durulanda Molla Pənah Vaqifin o illərdə hələ kitablarına salınmasına icazə verilməyən açıq-saçıq şeirlərindən əzbər deyib Xanın baş vəzirini eşqbazlıqda qınayırdı. Həmin vaxtlarda mənə elə gəlirdi ki, bu qoşmaların açıq-saçıqlığı deyil, məhz Şuşada yazıldığı İsrafil müəllimə daha çox yer eləyir.

***Xublar arığından yarımaq olmaz,***
***İgidin həmdəmi gərək çağ ola.***
***Bəstə boylu gərək, mina gərdənli,***
***Zülfü siyah, var əndamı ağ ola.***

***Səhər dura sürmə çəkə gözünə,***
***Birçəklərin həlqə qoya üzünə,***
***Cilvələnə, sığal verə özünə,***
***İşi, gücü gülüb oynamaq ola.***

...O ünvanı heç unutmadım: Sanatoriyaya sarı dikələn yolun sağındakı kiçik bağçanın dərinliyində yerləşən mehmanxanada qalırdıq. Mehmanxananın müdiri hər kəsdə şəxsinə qarşı ehtiram oyadan xoş simalı Əhəd müəllim idi. Bizə, necə deyərlər, ata qayğısı göstərirdi. Bir il sonra böyük bacıma nişan bazarlığı eləmək üçün Ağdam və Xankəndinin alış-veriş yerlərini gəzib dolaşandan sonra da Şuşaya qalxdıq. Bir-iki gün qalmaq fikrimiz vardı. Mehmanxanaya gəlib böyük bir ərklə Əhəd müəllimi tapdım. Məlum oldu ki, Qalaya gələn həddən çoxdur və mehmanxananın bütün yerləri tutulub. Əhəd müəllim anamı, böyük bacımı və məni elə o həndəvərdə, öz həyətindəki mənzillərdən birinin iki otağında yerləşdirdi. İki gün qaldıq. Gedəndə pul almadı, mənim qonağımsan, dedi Əhəd müəllim...

Sonralar, daha doğrusu, 1990-cı illərin əvvəllərinə qədər il ərzində bəzən bir neçə dəfə baş çəkdiyim Şuşalı günlərim barədə bir çox yazılarda, “Sınıq güzgü” publisistika kitabımda bəhs etmişəm.

**– 15. –**

Karvanımız Şuşaya yaxınlaşır və mənim xəyalım hələ də 1975-ci ilin iyun-avqust günlərinin təsir dairəsindən qopa bilmir...

Hə, Qulu Şuşanı bitdə-bitdə tanıyırdı, burada internat məktəbində oxumuşdu. Buna görə də məqalə hazırlamaq üçün üz tutduğumuz ünvanları bir anda tapırdıq. Məqalələrimizin bir çoxu tənqidi ruhda idi. Biz Şuşanın əsas meydan və küçələrinə çəkilən, fəqət, suyu quruyan bulaqlardan, yolların bərbad olmasından, şəhərin səliqə-sahmanına səhlənkar münasibətdən yazırdıq, yeni həvəs və yeni nəfəslə yazırdıq...

Fəaliyyətimizin əks-sədasını çox gözləyəsi olmadıq. Xəbər gəldi ki, Qəşəm müəllim bizi qəbul edəcək. Getdik qəbula. Hər üçümüz ilk dəfə idi ki, birinci katib kabineti görürdük. Qəşəm müəllim bizi sorğu-suala tutdu. O, on-on beş gün ərzində yazdıqlarımızın hamısını oxumuş, ifadə, cümlə qüsurlarının altından xətt çəkib, qeydlər aparmışdı.

– Görürsünüz, – Qəşəm müəllim qeydlərlə dolu qəzet səhifəsini bir qədər qaldırıb bizə göstərdi və dedi: – Elə düşünməyin ki, sizin nöqsanınız yoxdur. Siz nöqsanlardan yazmağı xoşlayırsınız. Necə ola bilər ki, bu boyda şəhərdə könül açan bir iş yoxdur. Şuşanın unikal tarixi abidələri, maraqlı adamları, memarlıq inciləri, tarixi şəxsiyyətlərlə bağlı yerləri, teatrı, musiqi ənənələri var. Bəlkə bunlardan da yazasınız. Sizin vəzifəniz təcrübə qazanmaq, həm də şəxsən mənə kömək etməkdir. Unutmayın ki, Dağlıq Qarabağ Muxtar Vilayətində Qəşəm Aslanov yeganə azərbaycanlı katibdir.

Bu eyhamlı tənqiddən sonra Qəşəm müəllim sanki yüz həştad dərəcə dəyişib bizim yazıları təriflədi. “Ürəyiniz nə istəyir yazın, – dedi, – sizə heç kəs mane ola bilməz”.

Həmən günün axşamı Qulu bizi vaxtilə ona internatda dərs demiş müəlliminin evinə apardı. Hayıf ki, o qadının adını, hətta sifətini belə unutmuşam. Kimlərinsə köməyi ilə sanatoriyalardan yuxarıdakı beşmərtəbəli evin gərək ki, üçüncü mərtəbəsində, balkonda kabab çəkdik...

İlahi, iki-üç ayın içərisinə nə qədər gənclik macərası sığarmış. Onların eləsi var ki, həmin macəranı üçümüz olanda danışırıq. Çingiz, Qulu, mən... Və hər dəfə də Qulunun hər ikimizdən xeyli fərasətli olduğu üzə çıxır.

Bir gün yenə üçümüz Şuşa tarix-diyarşünaslıq muzeyinin (Gövhər ağa məscidinin) qarşısında oturmuşuq. Olar saat 12. Demək olar ki, heç kimdə pul yoxdur. Üzümüzü qara bulud alıb. Qulunun zarafatları da vəziyyəti dəyişmir. Bu arada muzeyin yanında bir alabaş avtobus dayandı. Həmən an Qulu böyük həyəcanla qoluma vurub az qala bağırdı:

– Bax, Vaqif...

Baxdım, dizim uçundu, gözümə inana bilmirdim. Avtobusun haradan gəldiyini göstərən lövhənin üzərinə bizim kəndin adı yazılmışdı: “Böyük Bəhmənli”. Bir də baxdım ki, kəndimizin səyahət sevən kişiləri avtobusdan tökülüşür.

O zaman yaşlı qohum kişilərin tələbə cibinə pul qoymağı dəb idi. Bu mənada onların gəlməyini Allahın bizə qarşı böyük mərhəməti saymaq olardı. Qulu böyrümü dümsüklədi:

– Tanıdığın var?

– Niyə yoxdu, var, odur Qaçay dayım!

– Davay, get görüş, yəqin beşdən-ondan verəcək, tez elə, acından ölürəm...

– Utanıram axı...

– Utanmaq nədi ə, cum görüm...

Cummağa macal tapmıram. Qulu mənim belimin ortasından basıb avtobusa sarı itələyir. Və hər ehtimala qarşı, mənim yerimə dayımı cağırır:

– Qaçay dayı, ay Qaçay dayı...

Dayım adını eşidir. Mənə tərəf dönür, böyük bir məhəbbətlə boynuma sarılır. Görüş-öpüşdən sonra cibimə bir qırmızı onluq qoyur.

## *– 16. –*

Sözün düzü, yay vaxtı redaksiyada çalışan böyük əksəriyyətin məzuniyyətdə olması səbəbindən biz bu dağlar arasına göydəndüşmə bir təbərrük, bu balaca redaksiyaya, bu solğun rayon qəzetinə Allah-təalanın lütfü idik ki, gəlib çıxmışdıq bura; redaktor İsrafil Əbilov, redaktor müavini Qaffar müəllim, məsul katib Ülfət Muxtarov, şöbə müdiri Elman Elsevər, Şuşa RPK-nın təlimatçısı Ziyəddin Məhərrəmov, makinaçı Tahirə xanım, mehmanxana müdiri Əhəd müəllim, metrampaj Cəlil və digərlərinin hədsiz qayğıkeşliyi aurasında, onlardan bir çoxunun səhərlər ikram etdiyi çaya, pomidor-yumurta çığırtmasına, günortalar sarımsaq-qatıqlı yarpaq dolmasına, düyü supuna, hərdən axşamlar kababa-filana qonaq ola-ola gəlib çıxmışdıq avqustun əvvəlinə. Beş-on günə təcrübə müddəti bitəcəkdi və Çingiz Ağdama, mən Füzuliyə, Qulu Zəngilana yollanacaqdı; yenidən Bakıda dərslərə davam etmək üçün... Həmin vaxt, əgər səhv eləmirəmsə, Elman Elsevər deyəsən lap sevinə-sevinə dedi ki, bu gün qəzetin məsul katibi, şair Əli Mahmud məzuniyyətdən qayıdıb işə çıxıb, günorta bir yerdə çörək yeyəcəyik. Babalı yaddaşımın boynuna, deyəsən, belə olmuşdu. Əli müəllimlə iki-üç dəfəlik təmaslarımızdan sonra, praktikant görəvimiz başa çatdı və biz dağlardan arana endik, Şuşadan, Əligildən ayrıldıq. 25 yaşlı o zamankı Əli müəllimin cazibəsi, onun məxmər kimi yumşaq təbiəti, xeyirxah xisləti heç zaman mənim qəlbimdəki Əli Mahmud adlı işığın nurunu bir zərrə qədər də azaltmağa imkan vermədi. İki-üç il sonra, 1978-ci ildə biz gənc şairlər sırasında Şüvəlan seminarında görüşdük. Əli Mahmudun qulpundan yapışdığı qəhvəyi rəngli, işıldaq, bir qədər də iri əl çantasının görüntüsü indi də gözümün önündədir.

1986-cı ildə, bu dəfə ailəlikcən bir həftəlik istirahət, görüb-baxmaq, təmiz hava udmaq istəyi ilə Şuşaya ayaq basanda isə bizi bir başqası yox, Əli müəllim qarşıladı. Öz ailəsini müəyyən müddətə Meşəliyə göndərdi, beşmərtəbəli binadakı ikiotaqlı mənzilinin açarlarını bizə təhvil verib dedi ki, nə qədər vaxt imkanınız var, burda qalın. Qoy uşaqlar Şuşanı doyunca gör-

sünlər. Amma, məni də unutmayın, bir yerdə çörək kəsək, hesab da mənlikdi. Yaxşı günlər oldu. Xəyyam, Şəms onda heç məktəbə də getmirdilər, yadlarında nə qalıb, bilmirəm.

Şuşanın işğalından 20 il sonra baş verən bir açar əhvalatı isə mənim Əli Mahmudla söhbətimi canlandıran "Bağlı qapı açaram" kitabının son cümləridir.

"Elə oldu ki, Bakıda bir məclisdə onunla eyni masaya düşdüm. Bəzən adam o sayaq yerlərdə siftə-siftə özünü rahat hiss eləmir. Göz qoyuram ki, Əli müəllim gah sağ, gah sol əlini pencəyinin uyğun cibinə salıb nəsə eşələnir. Dostum bu əsnada cibindən bəziləri yüngülvari paslanıb xal atan açar topasını çıxartdı, gözünün qabağına tutub baxdı və təzədən qaytarıb yerinə qoymaq istəyəndə soruşdum ki, bu nə açarlardı?

– Heç, Şuşadakı evimizin, Meşəlidə dədəmgilin evlərinin açarlarıdı. Özümdən asılı deyil, bunlar Şuşadan çıxan gündən üstümdədi, hərdən çaşıb Bakıdakı mənzilin qapısına da bunları salıram.

Sonralar bu sayaq açar misalının digər xatirələrə də yol açdığını gördüm. Ola bilər, Qarabağın ağır günlərindən qalan xatirələrdə üst-üstə düşən məqamlar hüdudsuzdur. Amma, Əli müəllimin cibinin dərinliklərində gizlətdiyi o açarlar mənə görə daha etibarlı və düşərlidir. Çünki o açarların biri ilə ailəmlə birlikdə Əli müəllimin, əziz qardaşımın mənzilinin qapısını öz evimin qapısı kimi açıb Şuşanın saf havasını udmuş, Cıdır düzündə bu yerlərin sahibi kimi qürurla gəzmiş, İsa bulağında sərinlənmiş, sanatoriyalardan yuxarıdakı qayaların döşünə qalxıb kəklikotu ətrinə "bürünmüşdüm".

## *– 17. –*

Bir dəfə də Ziyəddin Məhərrəmov bizi Pansionatın qarşısındakı kababxanaya qonaq çağırdı. Üçümüz idik, o, Əli Mahmud, bir də mən. Ziyəddin müəllim əslən zəngəzurludur. Biz praktikada olan il o, yerli radio qovşağının həm müdiri, həm müəllifi, həm də aparıcısıydı. Sonralar rayon partiya komitəsində məsul vəzifələr tutdu. Elm yolunu seçdi. Ziyəddin müəllim gənc tələbə jurnalistlərə məxsusi vurğunluqla yanaşırdı. Təcrübə aylarında məni yanına salıb Şuşa bazarına apardığını, pendir, qaymaq, ağartı, göyərti və gözəl, isti Şuşa çörəyini çit torbaya doldurub ya beşmərtəbədə qərar tutan ikiotaqlı mənzilinə, ya da Qazançı kilsəsinin alt yamacını əhatələyən çəmənliyə apardığını, süfrə açdığını, birgə naharları ləzzətlə xatırlayıram. Ziyəddin müəllim xalq adamıdır, məncə, o, indi də "öncə xalqdır" düşüncəsinə "əsir düşən" nadir şəxsiyyətdir. Hə, Pansionatın ətəyində, yolun Pansionatdan bəri üzündə məclis quruldu, sifariş veriləndən dərhal sonra Ziyəddin müəllim tünd mixəyi sazı qara köynəkdən çıxarıb köklədi. Sonra... Sonra ayrı bir dünya yarandı; Qurbanidən, Aşıq Abbasdan, Aşıq Alıdan, Aşıq Ələsgərdən, Molla Cümədən, Şücaətdən, Alqayıtdan... Ziyəddin müəllimin yaddaşında, qülbündə nələr varsa, süfrəyə döşəndi. Unikal yaddaş, qalın, məlahətli səs, sazın pərdələrinə sehrli toxunuş və bələdlik,

Ziyəddin müəllimin nəinki bütün bədəni, eləcə ruhu, bütün varlığıyla hərəkətlənən ifa, arada bir dastanlardan, əhvalatlardan örnəklər... Lap mat qalınası idi... Bir də onda gördük ki, ofisiant soruşur:

– Müəllim, süfrəni yığışdıraq?

Deməli, Ziyəddin müəllim bizi sazla, sözlə elə ofsunlamışdı ki, yeməyə əl uzatmaq, isti, dadlı, işıldaq Şuşa kababının dadına baxmaq yadımıza düşməmişdi. Süfrə soyumuşdu.

Yeyib-içməyin qədrini yaxşı bilən Əli Mahmud düzümü pozulmamış süfrəni xumar baxışlarla süzüb ofisianta dedi ki, hə, qardaş, Allah köməyin olsun, bunları yığışdır, bizə qantəpərli, kəklilotulu çay ver...

Əli müəllim ofisiant gedən kimi Ziyəddin müəllimin dərsini verməyi də unutmadı:

– Gül kimi məclisi heç elədin, Allah sənə ömür versin, ay Ziyəddin, kabab soyudu, salat su saldı. Bu qonaqlığın sayılmır, günü sabah sən ya kələm qonaqlığı ver, ya kəlam!

Biz gülüb qurtarmamışdıq ki, ofisiant gümüşü sininin içində lüləyindən ətir saçan kəklikotulu, qantəpərli çaydanı süfrəyə yerləşdirdi...

O da yadıma düşür, günlərin bir günü mənimlə təcrübə keçən Çingizin özündən böyük qardaşı Fərid, Qərvənddən həmkəndlisi və dostu Fəxrəddinlə bizə baş çəkməyə gəldi. Fərid ixtisasca idman müəllimiydi. Az keçməmiş, məlum oldu ki, Şuşanın hansı bir stadionundasa şuşalılarla ağdamlılar arasında futbol yarışı keçiriləcək, özü də pullu. Bizim pula bir dəxlimiz yox idi, maliyyə məsələlərini Fərid qarşılayacaqdı. Kapitan qismində bəstəkar Süleyman Ələskərovun oğlu Azər (məncə adı beləydi) olmaqla yarış başlayanda bilindi ki, şuşalıların komandası tam tərkibdədi, hələ bir-iki nəfər də ehtiyatdadı, ağdamlılar isə tam tərkib olmaq üçün bir neçə nəfər çatışmır, onda məni (Füzuli) və Qulu Məhərrəmlini (Zəngilan) ağdamlıların komandasına daxil elədilər. Fərid soruşdu ki, meydançanın harasında bacararsan? Dedim, məktəb illərində həmişə qapını qoruyardım. Fərid razı qaldı. Çünki məndən savayı heç kim qapıda durmaq istəmirdi. Hamı hücum edib qol vurmaq xəyalıyla alışıb-yanırdı.

Oyun başladı. Çingizin, Allahqulunun, Fəridin, Fəxrəddinin... dovşan kimi dazımaları indi də vaxt-bivaxt gözümün önündə canlanır. Bizimkilərin rəqib qapısına iki top vurduğu dəqiq yadımdadır, o da dəqiq yadımdaqdır ki, qapıdan buraxdığım onuncu topdan sonra zəngilanlı Qulu Məhərrəmli məni Ağdam komandasından qırağa qovdu. Kimisə qapıçı qoydular. Şuşalılar ağdamlıların qapısından on üçüncü topu keçirdəndə mən oyunu dərin kədər içində meydança xəttinin kənarından izləyirdim... Həm də düşünürdüm ki, oyunun belə rüsvayçı hesabla bitməyi heç də qapıçı ilə bağlı məsələ deyilmiş...

Yenə o yadıma düşür; Ziyəddin Məhərrəmovla qənaətlərinə daim sədaqət nümayiş etdirən bu adamla ötən əsrin 90-cı illərində Bakıda təsadüfən rastlaşanda Şuşada, təcrübə keçdiyim günlərdə ona söylədiyim bu şeiri əzbərdən dedi:

***Səni gördüm, nazlı gözəl,***
***huş başımdan azdı yenə.***
***Damla-damla əridim, gəl...***
***Sən deyirsən: azdı yenə!***

***Gecə keçdi, açmadı şam,***
***Şama həsrət qalan quşam...***
***Ürəyimi açmamışam***
***istəyimə az deyənə.***

***Eşqin yolu səadətim –***
***Haqq payımı çox istədim...***
***Vaqif deyər son qismətim***
***azdı yenə, azdı yenə!***

Ziyəddin müəllim arada illər fərqi olmaqla bu şeiri mənə bir neçə dəfə əzbər söyləyəndə, günlərin birində bir növ onun üzünə "ağ oldum", dedim ki, qardaş, bu, gənc bir adamın ilk söz uçuntularıdı, mən digər, daha ciddi şeirlər də yazmışam. O, həm hirs, həm də məhəbbətlə gözümün içinə baxıb söylədi ki, nə yazmısan, özün bilərsən. Amma mənə görə sənin ən yaxşı şeirin budur.

Soruşdum ki, niyə belə düşünürsən?

Dedi ki, bu gəraylı saza yatır!

Ziyəddin müəllimə görə saza yatmayan mətn ədəbiyyat deyildi. Hərdən mən də elə düşünürəm ki, ritmindən asılı olmayaraq hansısa bir harmoniyaya yerləşməyən mətn ədəbiyyat deyil...

## *– 18. –*

Şuşada təcrübədə olduğum günlərdə, əlbəttə, qəzet üçün xəbərlər, müsahibələr, reportajlar yazmaqla yanaşı, dinc durmayıb şeirlər də yazmışdım. Onların çoxu Şuşa haqqında deyildi; elə-belə, ümumən poeziya, düşüncələrim. Amma Şuşa möhürlü belə misralar da kitablarıma düşüb. Onlardan birinə "Şuşa gəraylısı" adı vermişdim. O şeir belə idi:

***Könlün məni soraqlasa,***
***Bulaqların gözünə bax.***
***Bərəni-bəndi yoxlasan,***
***Yaşılına, yazına bax.***

***Sovqat verər dərə sənə,***
***Qızlar çiçək dərər sənə.***
***Dağ kəlinin nərəsinə,***
***Maralların izinə bax.***

***Cıdır düzü nəğməlidi,***
***Yarğanlara söykəlidi.***

***Pənah xanın heykəlidi –***
***Qayaların dizinə bax.***

***Nur iç İsa bulağından,***
***Öt Qalanın qırağından,***
***Şeh asılıb qulağından,***
***Gəlininə, qızına bax.***

***Gözdən qəfləti silginən,***
***Sözlərimi haqq bilginən.***
***Öləndə burda ölgünən,***
***Bəhmənlinin sözünə bax.***

Bu misralar da, tam bir əminliklə deyirəm ki, həmin təcrübə günlərində, Şuşada yazılıb, əsasında heç bir cazibədar prototip yoxdur. Şuşada kiməsə vurulmağım mümkün deyildi. Çünki bugünə qədər təqribən əlli il ərzində birgə yaşadığım sevgini təcrübəyə gələn günə qədər seçib Şuşaya gəlmişdim.

Şuşaya yetişməyimizə dəqiqələr qalmışkən o misraları da dodaqaltı pıçıldayır və kimsədən gizlətməməyə qərar verirəm.

***Öt dağlar döşündə şehli çəməni,***
***Üfüq lalə kimi qızaranda gəl.***
***Yayın da havası üşüdər səni,***
***Günəşdən hənir al, qız aranda, gəl.***

***Şüşə nəfəsitək nəfəs tapılmaz,***
***Bulaq nəğməsitək avaz tapılmaz,***
***Şuşa qızlarına əvəz tapılmaz,***
***Mən ölüm, Şuşaya qız alanda gəl!***

Şuşalı günlərimin xatirəsi mənə görə o qədər dəyərli, elə əzizdir ki, onların bitməsini heç istəmirəm. Onsuz da səfər yoldaşlarımın hamısı kimi mənim də ovqatım ala buludlardadı. 3-4 saat ərzində Bakının, Qobustanın, Şirvanın, Kürdəmirin, İmişli və Beyləqanın qaynar avqustunu yarıb keçəndən sonra karvan üzü dağlara qalxırdı, meşələrin, zümrüd saflığın 30 ildən bəri tamarzı qaldığımız mənəzərələrini seyr etdikcə, başqa səbəbdən yox, ən azı, gördüyümüzdən rahatlıq tapır, gözümüzdən sərinlənirik. İçimdəki rahatlıq, Qarabağ, xüsusən Şuşa haqqında xatirələrimin bolluğu sanki mənə başqalarından fərqli hansısa bir ixtiyarat verib, üstünlük qazandırıb. Həm də indi mənim xəyalımda canlananlar bu müqəddəs, əziz torpaqlara güzərlərim, görüb-tanıdığım məkanlar, insanlar haqqında yaddaş saxlancımın çox az bir hissəsidir. Çoxu qəlbimdədir, ruhumdadır. Elə bu düşüncə də məni qəribə bir enerji ilə doldurur, gülümsəyirəm öz-özümə. Hə, qarabağlı balası, daha bu olmadı, xalqıımız, ordumuz, dövlətimiz və BÖYÜK ZƏFƏR bu müqəddəs yurda 30 ilə gəldi, külli-Qarabağ, işğal altında olan 7 rayon azad olundu... Amma sənin xəyalların, deyəsən, bir az astagəldi axı. Bu xatirələri beynində fırlada-fırlada gərək bir həftə yol gedəsən ki, həm bu unudulmaz təəssüratların sonuna, həm də Şuşaya çatasan!

## – 19. –

Daşaltıdan qalxıb axır-uxur dolaylara yetişəndə, sonuncu dəfə maşın karvanımız dayanır, əsgərlərimizi görürük. Çünki bura Şuşanın girişindəki postdur. Bayrağımız dalğalanır. Dünənə qədər odun-alovun içində olan, dörd bir yanına güllə, mərmi yağan, lakin heç nədən qorxub çəkinməyən, Vətən naminə düşmənin üzərinə şığıyan bu əsgərlərin üzünə gülüş, həyatlarına sülh, əyinlərinə təmiz, toz-torpaqsız, qan ləkəsiz hərbi geyim, çiyinlərinə qundağını gün işığı parıldadan avtomat necə də yaxşı yaraşır. Mikroavtobusun içindən bəlkə də dünyanın ən xoş xəbəri pərvazlanır: "Ona baxın, dağın döşünə... ora "Şuşa" yazılıb!".

Milli Bayrağımızı fon olaraq canlandıran o yazını son bir ildə bəlkə hərəmiz min dəfə telereportajlardan, sosial şəbəkə seqmentindən görmüşdük. O lövhənin səssiz çağırışını dönə-dönə qaibdən eşitmişdik. Elə o dəqiqələrdən avtobusların içindəki insanların demək olar hamısı özündən asılı olmayaraq ayaq üstə qalxmışdı, hər kəs öz səmtindəki pəncərənin pərdəsini tamam geri sivirib sonsuz sevgi və heyrətlə, geniş açılmış gözlərlə təcəlla edən şəhərə – Şuşaya baxırdı. 15 dəqiqədən sonra biz elitar Xarıbülbül otelinin və onunla yanaşı ucalan, yenicə təmirdən çıxmış çoxmərtəbəli mehmanxananın həyətində maşınlardan tökülüşürdük.

...Əl çantamı otel otağında yerləşdirib dərhal şəhərin görüşünə qaçdım. Yan-yörəmə elə tərzdə boylanıb baxırdım, yəqin aralıdan görən olsaydı, nəyisə salıb itirdiyimi sanardı. Adsız küçə, qapısız-darvazasız həyətlər, bəziləri uçuq, bəziləri damsız, üstü adlar, işarələr dolu divarlar, evlər... Uzaqdan görünən Qazançı kilsəsini tanıdım. Ötən əsrin 80-ci illərində Ziyəddin Məhərrəmovla baş çəkib, içərisini gəzmiş, ətrafını yamyaşıl çəmənlik bürüyən tikilinin qalın kölgəsində oturub söhbətləşmişdik. O zamanlar əksər sovet gənci kimi milli təəssüb hissindən uzaq idim, ərazilər, abidələr, tarixin şahid yadigarları haqqında indiki informasiya cəbbəxanasına malik deyildim. Qazançı kilsəsinin ən qədimlərdə Şimali Azərbaycan ərazilərində mövcud olmuş Alban dövlətindən miras qaldığını da Ziyəddin müəllimdən eşitdim!

"Xarıbülbül" otelindən 10-15 addım aşağı düşəndə böyük bir sahəni əl içi kimi düzləyib dəmir lövhələrlə hasara alıblar. Sonradan öyrəndim ki, Paşinyanın "Artsax üçün tikəcəyi parlament binasının" yeri, Allah qoymasa, burada olacaqmış... Bir xeyli meydan səmtə endim. Budur, o balaca bağça, aşağıda bulaq olmalı idi. İndi çeşmənin yerində nəhəng bir konteyner dururdu. Yəqin inşaatçılarındı. Mənə elə gəldi ki, o bulaq bax elə bu səmavi rəngli konteynerin altında əziyyət çəkib inləsə də, hansısa bir təşnə məkana yenə də sızıb axmağındadır.

Əhəd müəllimin oteli yerli-dibli yoxdur. Orda balaca bir dükan gördüm. Səhv etmirəmsə, qarşıdakı beşmərtəbədən sonra Şuşa pansionatı yerləşirdi, onunla üzbəüzdə yeməkxanaydı. İlk dəfə Elman Elsevər, Əli Mahmudla orada çörək kəsib bir-bizimizə ömürlük bağlanmışdıq.

Bir dəfə Əhəd müəllimin mehmanxanasından çıxırdım, ən yuxarı terrasdakı skamyada Xan Şuşinskinin təkcənə əyləşib qəlyan çəkdiyini gördüm. O zamanlar tələbənin hünəri nəydi Xana yaxınlaşsın. Bir az aralıdan baxıb avtovağzala sarı getdiyimi xatırlayıram.

Rabitə evini keçirəm. Qarşı Şuşa şəhərinin mərkəzidir. Orda mədəniyyət evi vardı, üzü Güllü bağa, meydana baxırdı. İndi yoxdur. Güllələnmiş heykəllər – Xurşudbanu Natəvan, Üzeyir Hacıbəyli, Bülbül... Yaralı-yaralı, indi yeri də bilinməyən Mədəniyyət evinin qarşısında sıralanıblar. Şuşa Rayon Partiya Komitəsinin binası (Şuşa Rayon İcra Hakimiyyəti)... Fasadına ermənilərin həyasızcasına yapışdırdıqları xaç işarəsi qazılıb atılır, yəqin Azərbaycan gerbi qoyulacaq, qızğın təmir işlərinə baxmayaraq, binanın damında milli bayrağımız dalğalanmaqdadır.

Ovuclarımı Xan qızı bulağının gözünə tutdum. Suyu üzümə vurdum, daddım. Bütün digər həyətlər, binalar kimi Xan qızının sarayını da tük basmış, uçuq-sökük tikili saqqal bağlamışdı. Yarımdairə arkalardan müxtəlif ağacların budaqları vəhşicəsinə qanad açmışdı.

Bir az da irəliləyirəm.

Qədim Qalanın qədim divarları...

Bax burda, Qalanın içəri tərəfində Qala qapısının qarşısında Süleymanın çayxanası idi. Süleyman, nə Süleyman; əgər bir masa ətrafında 8 adam oturubsa, pürrəng çay süzülmüş armudu stəkanların 8 dəstini üst-üstə yığaraq yalnız bir əlinə yerləşdirib heç kəsi intizarda saxlamazdı. O, ayaq barmaqlarının üstündə yerimirdi, süzürdü. Öz işindən zövq alan nadir insan... Süleyman. Zarafatları, gülüşü, hər kəlməsi dəmlədiyi çayı kimi dadlıydı. Bir hovur susmurdu, elə hey üdüləyib tökürdü. Yerini yenicə tutan müştəri ilə aralıdan, hətta deyərdim, çox uzaqdan əhvallaşıb dərhal soruşurdu: “Çay necə olsun; teyxa, qarışıq, kəklikotu?” Teyxa – yəni, adi qara çay, qarışıq –



yəni, az miqdar qara çay, əlavə olaraq qantəpər, kəklikotu, qızılgül yarpağı, nə bilim daha nələr... Kəklikotu – yəni, yalnız kəklikotu dəmləməsi; Günəş rəngində sarı bir cilvəylə bərq vuran məcun, can dərmanı...

Üç-dörd il qabaq bir toyda Əli Mahmud məni çəkə-çəkə şadlıq evinin mətbəxinə apardı. Bir kişi ilə görüşdürüb soruşdu ki, tanıdın bunu? Məclisin gur işığından çıxıb gəlmişdim deyə, mətbəx mənə yarımqaranlıq görünürdü. Kişinin əlini bərk-bərk sıxıb üzünə baxdım və tanıdım.

– Boy, Süleyman deyilsən?

– Hə, qağa, Süleymanam...

Səsində həmişəki şaqraqlıq yox idi, həm həsrətli bir qərib idi, həm də yaş ötmüşdü. Deyir, qəribin boynu uzun olar, dili qısa. Süleymanın boyunun uzunluğundan söhbət gedə bilməz, sanki ayağı torpağa dəyməyib çayxana meydanında süzüb gedən Süleymanın boyu bir az da balacalaşmış, elə bil o, qınına çəkilmişdi...

Güllü bağın yuxarı hissəsində “Qarabağ” oteli ucalır. “Qarabağ” otelinin, Molla Pənah Vaqifin məqbərəsinin, Vaqifin bir vaxtlar evi olmuş məkanda büstünün, Bülbülün ev muzeyinin açılışı olmuş, bir neçə təməlqoyma mərasimi yekunlaşmışdı. Hamısını ziyarət elədim, təkbaşına, elə həmin gün. Tam bərpa olunmuş, hələ ki önündə əli avtomatlı əsgərlərimiz keşik çəkən Gövhərağa məscidinə maneəsiz, sorğu-sualsız daxil olub dualar oxudum. Vaqifin məqbərəsinə, ordan Cıdır düzünə qalxdım.

Səhər də elə, o biri gün də elə, üç gün insanlar ya tək-tək, ya dostlarla bir yerdə Şuşanı qarış-qarış gəzdik, ötüb keçdiyimiz yerlərdən bir də keçdik, Qalanın başına dolandıq. Doymaq isə mümkün deyildi.

Səfər yoldaşlarımızdan biri – Günel Musa 30 il müddətində düşmən tərəfindən talanıb yağmalanan, 600-dən çox abidəsi məhv edilən şəhəri “yorulmuş döyüşçü”yə bənzətmişdi. Nə olur-olsun, tarixdən üzü bəri başı bəlalar çəkən, amma heç zaman milli simasını itirməyən Şuşanın idiki halı hansı bənzətmələrlə ifadə edilir-edilsin, biz Şuşanın yerində olduğunu, məhz yerində olduğunu canlı şəkildə, gözümüzlə görürdük.

Səsində ana kədərinin ruhunu yaşadan bənzərsiz xanəndə Elnarə xanım Abdullayeva “Görən Şuşa yerindəmi” rədifli bir muğam parçası ifa etmişdi. Bu xanım müğənninin harayı imdad çağırışı idi. O zaman yanan ürəyin harayına belə səs vermişdim:

***Batıb Şuşanın dili,***
***Zili, pəsi çatışmır.***
***Tarixdi Pənahəli –***
***Xan nəvəsi çatışmır!***

***Orman yaşıl daraqdı,***
***Sıldırımlar yaraqdı,***
***Şuşa yanar çıraqdı,***
***Pərvanəsi çatışmır.***

*Kafər kəsib yolağı,*
*Kardı Kirsin qulağı!..*
*Cabbarsız Qarabağın*
*Zənguləsi çatışmır.*

*İtkin düşüb qonağı,*
*Sağ şikəstə, sol ağı.*
*Axır İsa bulağı,*
*Piyaləsi çatışmır!*

*Halal haqqın payı yox,*
*Ulduz qəmin sayı yox...*
*Yurd dərdinin tayı yox –*
*Salnaməsi çatışmır.*

*Dağ durur dağ tuşunda –*
*Dərədi ağuşunda.*
*Çağlar bulaq başında,*
*El nərəsi çatışmır!*

*Bürünüb duman Şuşa,*
*Tökür gözdən qan Şuşa!*
*Yerindədi xan Şuşa –*
*Elnarəsi çatışmır.*

Mən bu epizodu Cıdır düzündən Kirs dağlarına sarı ürək döyüntüləri ilə baxarkən xatırladım. İstədim qollarımı geniş, başımızın üstündəki buludsuz, təmiz, günəşli səma qədər geniş açıb deyim:

– Şuşa yerindədi, Elnarə. Hələ üstəlik, biz də burdayıq!

## – 20. –

Nəhayət, avqust ayının 30-da tarixi an gəlib yetişdi. Şairin yenicə bərpa olunmuş məqbərəsi önündə düzənlənən Vaqif Poeziya Günlərinin açılış törəni hər kəsin qəlbində “Xəzinə” qayasına dəyib qayıdan səs kimi əks-səda verirdi. Biz nəinki çağdaş ədəbiyyat tariximizin, əslində, müasir tariximizin ən möhtəşəm bir hadisəsinin iştirakçıları, şahidləri idik.

Hörmətli Prezidentimiz 2020-ci ilin sentyabrından başlayaraq ta bu tədbirə qədər özünün parlaq, ağıllı çıxışları, müsahibələri, xalqa müraciətləri ilə həm Azərbaycan, həm də dünya ictimaiyyətini əməlli-başlı heyrətləndirmiş, sanki Azərbaycan xalqını, onun mənəviyyatını, intellektual potensialını, dövlətinin qüdrətini dünya səhnəsinə yenidən təqdim etmişdi.

Vaqif Poeziya Günlərinin açılış mərasimində tədbirə qoşulanlardan hər hansı birinin, yəni bizlərdən kiminsə nə vaxtsa “mən cənab Prezidentin Şuşada, Vaqifin məqbərəsi önündəki nitqini belə xatırlayıram” söyləməsi

heç bir halda caiz deyil; çünki azad Şuşa fonunda söylənən bu nitq həqiqətən unudulmazdır, onun hər cümləsinin xatirəsi iştirakçıların yaddaş dəftərində ömürlük yazıdır. Bu barədə ən qısa şəkildə, bir neçə kəlmə söyləyəcəyəm.

Xatirə abidəsinin sol yanı dərənin lap diblərinə qədər sərt şəkildə meyillənən meşə ağacları ilə örtülü yamacdır. Sağ tərəf yenə ağac, kol bürüncəkli məxmər yaxalıq kimi Cıdır düzünə qalxan yolun çiyninə atılıb sanki. Göy üzündə Günəş, aşağıda Günəş işığına bələnən Cıdır düzünün hamarlığı, genişliyi... Ora burdan görünmür, təsəvvürüm isə yüzdə-yüz gerçəkdir.

Kifayət qədər geniş meydan daşla döşənib, bura xiyaban da demək olar. Meydanın dörd yanı boyunca çələng kimi sıralanan ləklər içindən müdrik dövlət xadiminin, böyük şairin ruhu misalında əlvan güllər, çiçəklər boy göstərir.

Prezident 1982-ci ildə Ulu Öndərin qətiyyəti və uzaqgörənliyi sayəsində bu məqbərənin necə mürəkkəb bir şəraitdə yaradılması barədə danışır, bildirir ki, "bu, sıradan olan hadisə deyildi. Çünki o vaxt Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi. Bildiyiniz kimi, uzun illər ermənilər Şuşaya iddia edirdilər, Şuşanı erməni şəhəri kimi qələmə verməyə çalışırdılar. Halbuki, bunun üçün heç bir tarixi, mədəni əsas yox idi. Onu da nəzərə almalıyıq ki, Molla Pənah Vaqif təkcə şair yox, eyni zamanda, Qarabağ xanının vəziri idi. Sovet dövründə sovet ideologiyası, sovet hökumətinin tarixlə bağlı yanaşması belə idi ki, xanlıqlar tarixin qara ləkəsi kimi qələmə verilirdi".

Sonra... sonra strateji baxımdan, demək olar Qarabağın açarı sayılan Şuşa işğal olundu, nəinki Vaqifin məqbərəsi, bütün Qarabağ əsir düşdü.

Prezident nitqinə davam edir: "Əfsuslar olsun ki, Şuşa işğala məruz qalandan sonra bütün tarixi abidələr, mədəni abidələr, o cümlədən Vaqifin məqbərəsi vandallar tərəfindən dağıdılmışdır. Şuşanın işğalı xalqımızın böyük faciəsi idi. Çünki Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır".

Prezident deyir: "Gələn il biz Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi".

Prezident nitqinə davam edir: "44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik".

..."Müharibədən sonra mən ilk dəfə Şuşaya 14 yanvar, bu ilin yanvarın 14-də gəlmişdim. Bu tarix də təsadüfən seçilmədi. Çünki ondan, o tarixdən 39 il əvvəl burada Ulu Öndərin iştirakı ilə Vaqifin məqbərəsi açılmışdı və məhz 14 yanvarda mənim bura gəlməyimin çox böyük rəmzi mənası var idi və ilk səfərimdə buraya gəldim və ilk göstərişlərdən biri də o oldu ki,

Vaqifin məqbərəsi bərpa edilsin, çünki vandallar bu məqbərəni dağıtmışdılar, sökmüşdülər. İçəridəki Vaqifin barelyefini sökmüşdülər, sinə daşını sökmüşdülər".

..."Məqbərənin bərpasını Heydər Əliyev Fondu öz üzərinə götürdü və bu gün biz bu məqbərənin önündə Vaqif Poeziya Günlərinə start veririk. Vaqif Poeziya Günləri də bərpa edildi, Xarıbülbül festivalı da bərpa edildi".

Sonra dövlət başçısı ölkənin mədəniyyət xadimləri, şair, yazıçı və ədəbiyyatşunasları qarşısında ciddi yekunlarla zəngin hesabatını davam etdirərək 7 ay ərzində görülən işlərdən söz açır; Zəfər yolunu qeyd edir, Füzulidən Şuşaya daha bir qısa, magistral yolun çəkildiyini, şəhərdə elektrik təsərrüfatının nizama salındığını, su xətlərinin, tarixi abidələrin, o cümlədən, Vaqifin büstünün, Yuxarı və Aşağı Gövhərağa, Saatlı məscidlərinin, Natəvan bulağının təmirini, Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün güllələnmiş heykəllərinin öz əvvəlki yerinə qoyulduğunu, Bülbülün ev muzeyinin açıldığını, Üzeyir bəyin ev muzeyində bərpa işlərinin başladığını, "Xarıbülbül", "Qarabağ" otellərinin açıldığını, yeni beşulduzlu otel üçün yerin seçildiyini, 25 binadan ibarət yeni yaşayış kompleksinin təməlinin qoyulduğunu... nəhayət, Şuşanın baş planının hazırlanıb təsdiqləndiyini bildirir.

Prezidentin çıxışı Qarabağın, eləcə də Şuşanın ecazkar sabahına dərin inam və kövrək bir xatirə-müqayisəylə sona yaxınlaşır: "Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik".

Bu da öncə qələbədən müjdə verən, eyni zamanda, tükənməz işgüzarlıqdan, vətən torpaqlarının hər qarışını gülüstana çevirmək arzusundan bəhs edən bir çıxışın kövrək sonluğu: "Təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq".

Azərbaycan tarixinin qara səhifələri arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq... Cənab Prezidentin Vaqifin məqbərəsi önündə səsləndirdiyi bu cümləni təkrar yazıram. Çünki bu cümlədə xalqımızın 30 illik intizarına, yurd-yuvasından didərgin düşən insanların əzablarına son qoyulduğunun müjdəsi ifadə olunmuşdur!

Və həqiqətən də belə bir tarixi saatların şahidi olmaq, burada iştirak eləmək, məhz burada, Şuşada azad nəfəs almaq, an azından, bəxtiyarlıqdır!

Doğrudan-doğruya, nəfəsimiz genişlənib, gücümüz, taqətimiz artıb sanki...

Poeziya bayramının iştirakçıları adından İkinci Qarabağ müharibəsində xalqımıza zəfər qazandıran milli ordumuza, Müzəffər Ali Baş Komandana minnətdarlıq ifadə edən çıxışlar – Xalq şairi Nəriman Həsənzadənin, Xalq yazıçıları Anarın, Elçinin səmimi, mənalı nitqləri yəqin ki, əziz Şuşanın yaddaşında zaman-zaman yaşayacaq, "tarixinin qara səhifəsi arxada qalan Azərbaycan" xalqı həmişə hər qarış torpağını qorumağa, Vətənin, millətin haqq işi uğrunda canından, qanından keçməyə hazır olacaq!

Poeziya bayramının ikinci günündə Xalq şairi Sabir Rüstəmxanlıdan sonra şeir söyləmək üçün mənə söz verdilər. Ustad Vaqifin ruhu önündə oxuduğum iki şeirdən biri "Vaqif" adlanırdı. Onu da 1975-ci ildə, "Şuşa" qəzetində təcrübədə olduğum günlərdə yazmışdım:

***A Bəhmənli, ustadındı***
***Adı dildə gəzən Vaqif.***
***Çətin yollar keçib, sonda***
***Şəhla gözdə azan Vaqif.***

***Od calayıb odumuza,***
***Şan gətirib adımıza.***
***Çox yetişib dadımıza***
***Vəzir Vaqif, ozan Vaqif.***

***Əziz xələf, əziz xətir,***
***Sözü yanan qəlbə çətir,***
***Durnaları sətir-sətir***
***Misralara düzən Vaqif...***

***Vaqiflərlə dünya dolu,***
***Hərəsinin ayrı yolu.***
***Topasının ağsaqqalı***
***"Görmədim"i yazan Vaqif.***

Elə həmin gün axşamüstü "Qarabağ" otelinin həndəvərində ədiblərimizdən bir qrupunun toplaşıb söhbətləşdiyini gördüm. Onların arasından dostum, şair Barat Vüsal uca səslə mənə tərəf haylandı:

– Salamlar, Vaqif müəllim...

– Salam, əziz qardaş...

Barat bəy daha sonra dəstəyə üz tutub yenə uca səslə:

– Uşaqlar, mənə elə gəlir, Vaqif müəllim Şuşadan heç yerə tərpənməyib, elə o vaxtdan burdadır, 1992-dən, – dedi.

Mən, guya həqiqətən belə olduğunu başımla təsdiqləyib, zarafata zarafatla cavab verdim:

– 1992-dən yox, Barat müəllim, 1971-dən. Əlli ildir Şuşadayam, ondan qopa bilmirəm...

***Mərdəkan, 2021, noyabr***